Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

20 MART 2020-ci il

№ 50 (4181)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# KORONAVİRUSA GÖRƏ DAĞLIQ QARABAĞDA ERMƏNİLƏRİN ATƏŞKƏS POZUNTULARI ÜZƏRİNDƏ NƏZARƏT DƏ TƏXİRƏ SALINDI...

■ səh. 5 ■

Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı ■ səh. 2 ■

Prezidentin mühafizə işinin təkmilləşdirilməsi dövrün tələbinə tam adekvat islahat kimi... ■ səh. 4 ■

Ermənistan ordusunda yeni dağılma təzahürləri ortaya çıxdı... ■ səh. 9 ■

AŞPA və ATƏT rəsmiləri koronavirus dövründə Azərbaycanda yenidən "siyasi məhbus" nağıllarına başlayır ■ səh. 4 ■

Moskva Paşinyanın ipini kəsdi ■ səh. 7 ■

Özəl tibb müəssisələri koronavirusla mübarizədə dövlət tədbirlərinə dəstək vermədi... ■ səh. 11 ■

Azərbaycanda "Koronavirusla mübarizə könüllüləri"nin dövrü nə vaxt başlayacaq... ■ səh. 6 ■

Koronavirusla ümumi mübarizə tədbirlərinin Azərbaycanda daha bir nəticəsi - ekologiya və atmosfer təmizlənir, gigiyenik vəziyyət yaxşılaşır... ■ səh. 11 ■

Virus təhlükəsi dövründə nağdsız ödənişlərə daha geniş imkanlar açılır ■ səh. 12 ■



## Prezident İlham Əliyev - Xalqı xilas etmək üçün hər şeyə gedəcəyik, hətta fövqəladə vəziyyətə də... Kim 14 mart qaydalarına əməl etməsə...

■ səh. 3 ■





## Neft bazarının çöküşü dünyanı ayağa qaldırır - ABŞ-Səudiyyə münasibətləri pozulur, 13 senator kralı hədələdi...

■ səh. 8 ■

## COVİDA nədir, niyə 19, bu adı kim və nə vaxt verib...

■ səh. 10 ■

## Virus təhlükəsi Ermənistan kimi siyasi-iqtisadi zəif ölkələrdə hakimiyyət dəyişikliyi törədə bilər

■ səh. 5 ■

Özəl klinikalar koronavirus dövründə dövlətə və cəmiyyətə heç bir fayda vermədilər - Azərbaycanda özəl klinikalar niyə də yenidən dövlətləşdirilməsin...

■ səh. 2 ■



Koronavirusla mübarizəyə qoşulan özəl tibb işçilərinə dövlətin dəstəyi praktikada hansı nəticələri verəcək...

■ səh. 2 ■



İnformasiyaların yayılması üzərində daha sistemli nəzarət və Azərbaycanda koronavirus təhlükəsi ilə mübarizənin səmərəsi...

■ səh. 13 ■



AMEA-da nə professor dərəcəsi... Alimlər arasında fəal reaksiyalar var

■ səh. 13 ■



Özəl məktəblərə xaricdən gətirilən dərsliklərin məzmunu ilə bağlı nazirlik maraqlı məsələ qaldırıb...

■ səh. 15 ■



## Azərbaycanda daha 10 nəfərdə koronavirus infeksiyasına yoluxma qeydə alındı

**Azərbaycanda 10 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb. Nazirlər Kabinetinin yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, xüsusi rejimli xəstəxanalara yerləşdirilən və müşahidə altında olan pasiyentlər özlərini normal hiss edir, səhhətləri stabil qiymətləndirilir.**

İnfeksiyaya yoluxmuş həmin şəxslər müxtəlif vaxtlarda Almaniya, Fransa, Türkiyə və İrandan Azərbaycana qayıdıblar. Hazırda Azərbaycanda 33 nəfər aktiv koronavirus xəstəsi xüsusi rejimli müəssisələrdə həkim nəzarəti altında saxlanır, onların müalicəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma sürətini nəzərə alaraq, hər bir şəxsi Ümumdünya Səhiyyə Təşkilatı və Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə ciddi riayət etməyə çağırırıq.

Eyni zamanda, vətəndaşlardan özünütəcrid tədbirlərinə uyğun davranmaq, yalnız ciddi ehtiyac yarandıqda evdən çıxmaq, digər şəxslərlə minimum kontaktda olmaq, insanların sıx toplaşdığı yerlərə getməmək kimi qaydalara əməl etmək tələb olunur.

# Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı

**Prezident İlham Əliyev Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında fərman imzalayıb.**

Fondun məqsədi koronavirus infeksiyasının Azərbaycanda yayılmasının qarşısını almaqdan və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etməkdən ibarətdir.

Prezidentin sərəncamı ilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Koronavirusla Mübarizəyə Dəstək Fonduna ilkin olaraq 20,0 (iyirmi) milyon manat ayrılıb.

Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll edəcək, Maliyyə Nazirliyi isə Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin edəcək.

**Koronavirus deyilən təhlükə ilə qlobal mübarizə mərhələsi başlayandan ölkəmizdə diqqət çəkən bir təzahür də budur ki, özəl tibb müəssisələri özlərini çox soyuq, laqeyd və zəif aparırlar. Bu ölkəni bürüyən qorxunun sanki onlara dəxli yox imiş. Bəlkə də dəxli var və orurub gəlir mənbəyi olan xəstələrin say artımını gözləyirlər.**

# Özəl klinikalar koronavirus dövründə dövlətə və cəmiyyətə heç bir fayda vermədilər - Azərbaycanda özəl klinikalar niyə də yenidən dövlətləşdirilməsin...




Baki-xeber.com-un xəbərinə görə, bu sözləri politoloq Aydın Quliyev özünün facebook səhifəsində yazıb. Dünyanı bürüyən koronavirus təhlükəsinə qarşı dövlət səviyyəsində atılan ardıcıl addımlara diqqət çəkən A.Quliyev özəl sektorun bu prosesdən yaxasını kənara çəkməsini yolverilməz adlandıraraq sual edir ki, belə bir zamanda dövlətin siyasətinə dəstək verməyəcəklərsə, onların özəl varlığına ehtiyac varmı?

Politoloq daha sonra yazır:

Faktdır ki, özəl xəstəxana biznesinin "kralları" bu ölkədə illərdi ən samballı gəliri olan adamlar sayılır. Bir qəpiklərindən keçməz, yetim yesirə əl tutmaz, qaçqın və köçkünlərə əl uzatmaz, müharibə əlili və şəhid ailəsi bilməz,dövlət başçısının "Sosial məsuliyyət" layihələri çərçivəsində heç bir çağırışa cavab verməzlər..

Özəl xəstəxanaların Koronavirusla mübarizədə zəif,utilitar iştirakı bütün dünyada özünü göstərsə də, bu problem Azərbaycanda daha dəhşətli şəkildə üzə çıxır. Bütün ağırlıqlar dövlət xəstəxanalarının üzərinə düşüb. Belədə yalnız öz "krallarına" quduz pullar qazandıran özəl xəstəxanalar və klinikalar sistemi bizə lazımdırmı?

Bir vaxtlar dünya ölkələri dövlət xəstəxanaları sistemindən kütləvi şəkildə özəl xəstəxanalar sisteminə keçdi. Onda dövlətlər və hökumətlər nisbətən kasıb, özəl sektor isə varlı idi. Öz dövrü üçün ən yaxşı xəstəxanalar məhz bu səbəbdən əsasən özəl sektorlarda yarana bildi. İndi ki hər şey tərsinə və həm də yaxşı tərəfə dəyişib. Məsələn, Azərbaycan dövləti bu gün dünyada ən yaxşı dövlət xəstəxanaları yaratmaq imkanına malikdirsə və yaradırsa,niyə də bütün xəstəxanaların yenidən dövlətləşdirilməsi dövrünə qayıtmayaq?! Ölkənin ən ağır günlərində hər tibbi problemi çiyninə çəkən belə imkanlı və sosial dövlətimiz varsa, xəstəxana sistemləri niyə də Həsənqulunun, Məmmədqulunun əlində olmalıdır və bu "qullar" da çətin virus günlərində yaxalarını kənara çəkərək ancaq şıdırğı pul qazanmaqlarında olsunlar? Özəl klinika və xəstəxanaların gündəlik kassasının az qala Mərkəzi Bankın filiallarından biri qədər varlı olduğunu kim bilmir ki?!

Bəzi ölkələr 21-ci əsrdə artıq özəl xəstəxanalar sisteminin özünü sosial məsuliyyət müstəvisində qətiyyən doğrultmadığını, ancaq kimlərinsə şəxsi gəlir mənbəyinə çevrildiyini açıq deyir, bu səbəbdən də xəstəxanaların dövlətləşdirilməsinə yenidən qayıtmağı qərarlaşdırır.

Bəs Azərbaycan nə üçün özünü doğrultmayan özəl klinikalardan dövlət xəstəxanaları sisteminə qayıtmasın?! Burada söhbət heç kimin əmlakının müsadirə edilməsindən getmir.

**Qərar olarsa, kimsənin əmlakına qətiyyən ziyan vurmadan hamının əli çatan və çətin günlərdə isə ictimai yükə çiyin verən dövlət xəstəxanaları sisteminə yenidən qayıtmaq mümkündür..**

**Məlum olduğu kimi, Prezident İlham Əliyev yeni növ koronavirus (COVID -19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında Sərəncam imzalayıb.**

# Koronavirusla mübarizəyə qoşulan özəl tibb işçilərinə dövlətin dəstəyi praktikada hansı nəticələri verəcək...




***Rasif Bağırov:** "Azərbaycan dövləti həkimlərin fədakarlığını yüksək qiymətləndirməklə infeksiyanın yayılmasına qarşı effektiv fəaliyyət həyata keçirdiyini nümayiş etdirdi"*

Sərəncama əsasən, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşının 3-5 mislinədək miqdarda müddətli əlavə müəyyən edilir.

Həmçinin, Nazirlər Kabinetinə bu sərəncamla müəyyən edilən müddətli əlavənin şamil olunacağı tibb işçilərinin əhatə dairəsini, əlavənin ödənilmə müddətini və işin xüsusiyyətindən asılı olaraq miqdarını müəyyən etmək, COVID-19 infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan tibb işçilərinin və könüllülərin əməyinin ödənilməsi şərtlərini müəyyən etmək və sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

Koronavirusla mübarizədə özəl tibb müəssisələrində çalışan kadrlar da dəstək verir. Özəl klinikada çalışan həkim məlum virusla mübarizə tədbirində fəal iştirak edirsə, Prezidentin imzaladığı sərəncam həmin kadrlara da şamil olunur.

Həkim-ekspert Rasif Bağırov bildirdi ki, sərəncam özəl müəssisələrdə çalışan tibb işçilərinə də şamil oluna bilər: "Çox vacib detallar var ki, onlar hamısı müəyyənləşdirilməlidir və qərar əsasında infeksiyaya qarşı mübarizə aparan tibb işçilərinin əməkhaqları artırılmalıdır. Burada özəl müəssisələrin tibb işçiləri də ola bilər. Könüllü tibb işçiləri də var ki, onlara da qanunvericilik çərçivəsində müəyyən sosial imtiyazlar verilə bilər".

Həmsöhbətimiz onu da əlavə etdi ki, Azərbaycan dövləti həkimlərin fədakarlığını yüksək qiymətləndirməklə infeksiyanın yayılmasına qarşı sistemli və effektiv fəaliyyət həyata keçirdiyini nümayiş etdirdi: "Nəzərə almaq lazımdır ki, həkimlər xəstə yaxınlarının ümid yerinə çevrilirlər və eyni zamanda, bir qədər də təzyiq altında olurlar. Çünki hər birimizin onlardan gözləntilərimiz olduqca böyükdür. Belə vəziyyətdə, heç şübhəsiz ki, tibbi xidmət sahəsində fədakar əmək sərf edən vətəndaşlarımız əməklərinin maddi qarşılığını almalı, gündəlik qayğılardan azad olmalıdırlar".

*Günel CƏLİLOVA*

# Prezident İlham Əliyev - Xalqı xilas etmək üçün hər şeyə gedəcəyik, hətta fövqəladə vəziyyətə də... Kim 14 mart qaydalarına əməl etməsə...



**Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Təbrikdə xüsusilə deyilir: -...Bu il koronavirusa görə kütləvi tədbirlərin keçirilməsi mümkün deyil. Əminəm ki, Azərbaycan xalqı bu vəziyyəti yaxşı anlayır. Azərbaycan dövləti tərəfindən görülən bütün tədbirlər xalqın sağlamlığını, ölkəmizin təhlükəsizliyini təmin etmək üçündür.**

Ona görə xahiş edirəm ki, hər bir vətəndaş öz məsuliyyətini dərk etsin və yaşlı nəslin nümayəndələrinə xüsusi diqqət göstərilməlidir. Yaşlı nəslin nümayəndələrinə Azərbaycan cəmiyyətində həmişə böyük hörmət göstərilir. Mən bu mövzu ilə bağlı fikirlərimi kifayət qədər geniş şəkildə bildirmişdim və bir daha demək istəyirəm ki, bu, bizim cəmiyyətimizin əsas sütunlarından biridir. Bizim ənənələrimiz, milli dəyərlərimiz, yaşlı nəslin nümayəndələrinə hörmət və diqqət milli xüsusiyyətimizdir və biz bu dəyərləri bundan sonra da qorumalıyıq. Ancaq indiki şəraitdə yaşlı nəslin nümayəndələrinə xüsusi diqqət göstərilməlidir. Onlara hörmət dildə, sözdə yox, əməldə göstərilməlidir. Çünki bu xəstəliklə bağlı ən ağır fəsadlar məhz yaşlı nəslin nümayəndələrində müşahidə olunur. Əminəm ki, biz dünyanı bürümüş, pandemiya halına çevrilmiş bu xəstəliyə qarşı birlikdə mübarizə aparacağıq və bu mübarizə öz nəticəsini verəcəkdir...

...Yeni parlamentin qarşısında duran vəzifələr haqqında mən parlamentin ilk iclasında öz sözlərimi demişəm. Əlavə etmək istərdim ki, parlamentin tərkibi yenidən formalaşdı və ilk dəfə olaraq parlamentin rəhbərliyində müxalifət nümayəndələri də yer aldı. Eyni zamanda, parlament komitələrinin rəhbərliyində də müxalifət nümayəndələri təmsil olunur. Bu, ölkəmizin tarixində ilk dəfə baş verən hadisədir və bir daha onu göstərir ki, bizim niyyətimiz çoxpartiyalı sistemin təkmilləşdirilməsidir. Sirr deyil ki, parlamentdə səslərin çoxluğu Yeni Azərbaycan Partiyasına məxsusdur. Əlbəttə, Yeni Azərbaycan Partiyasının razılığı olmadan bu islahatlar aparıla bilməzdi. Bu onu göstərir ki, bu istiqamətdə atılan addımlar ölkəmizin gələcək uğurlu inkişafına müsbət təsir edəcək və ölkəmizdə siyasi sistemin yeni konfiqurasiyası formalaşır.

Eyni zamanda, Prezident Administrasiyası bütün siyasi partiyalara dialoq təklifi etmişdir. Bu da çox ciddi addımdır. Sirr deyil ki, bu gün Azərbaycan iqtidarı tarixdə olmadığı qədər güclüdür. Biz hesab edirik ki, güclü ilk addımı atmalıdır, ilk təklifi verməlidir və belə demək mümkündürsə, yolunu azmışlara da yol göstərməlidir. Yəni, biz bunu etdik və şadam ki, siyasi spektrin mütləq əksəriyyəti bu təşəbbüsə müsbət reaksiya vermişdir, faktiki olaraq siyasi dialoq artıq başlamışdır. Əminəm ki, bunun nəticələri də xalqımız üçün və ölkəmizin gələcək inkişafı üçün müsbət olacaqdır. O ki qaldı, bu dialoqdan imtina edən qruplaşmalara, onlar özləri bilərlər. Hər halda mən demişəm, bir daha demək istəyirəm, uduzan tərəf biz olmayacağıq və yeni siyasi konfiqurasiyada satqın, xain beşinci kolonun nümayəndələrinə yer olmayacaq. Azərbaycan təmizlənir, o cümlədən satqınlardan, xainlərdən, beşinci kolonun nümayəndələrindən təmizlənir və təmizlənməlidir…

…Bildiyiniz kimi, koronavirus xəstəliyi dünya gündəliyinin bir nömrəli məsələsidir. Artıq Ümumdünya Səhiyyə Təşkilatı pandemiya elan edibdir və bəyan edibdir ki, pandemiyanın mərkəzi Avropa məkanıdır. Bu xəstəliyin geniş yayılması onu göstərir ki, hətta inkişaf etmiş ölkələr onun qarşısını ala bilmirlər. Bu xəstəliyə qarşı heç bir dərman, vaksin yoxdur və nə vaxt olacaq, heç kim bilmir. Ona görə bu xəstəliyin məhdudlaşdırılması və yayılmaması üçün biz bəri başdan, ən ilk günlərdən praktik addımlar atmağa başlamışıq. Mənim göstərişimlə yanvarın 24-dən Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Bu qərargah 24 saat işləyir, bütün dövlət qurumlarının fəaliyyətinə rəhbərlik edir, xəstəliklə bağlı bütün işləri nəzarətdə saxlayır və bu işləri əlaqələndirir. Ciddi tədbirlər görülmüşdür. Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə yanvarın 24-dən yeni əməkdaşlıq formatı çərçivəsində işləməyə başlamışıq. Onları ölkəmizə dəvət etmişik. Onların tövsiyələrinə riayət edərək ölkəmizdə çox ciddi tədbirlər görmüşük. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri mart ayında Azərbaycana gələrək, vəziyyətlə tanış olaraq bildirdilər ki, Azərbaycan rəhbərliyi koronavirusun yayılmaması üçün çox önəmli və təsirli tədbirlər görür. Bu həqiqətən də belədir.

…Dövlət nə lazımsa edir, vəsait ayırır. Martın əvvəlində bu xəstəliklə mübarizə üçün 10 milyon manat vəsait ayrıldı. Bu gün bəyan edirəm, Prezidentin ehtiyat fondundan əlavə 20 milyon manat ayrılacaq ki, həm bu xəstəliyə qarşı mübarizə daha təsirli olsun, eyni zamanda, koronavirus xəstələrinə qulluq edən həkimlərin maddi təminatı daha da yüksək olsun. Biz bunu da nəzərə alırıq. Mən bir daha Azərbaycan həkimlərinə öz təşəkkürümü bildirmək istəyirəm. Onlar bu xəstəliyə qarşı fədakarcasına mübarizə aparırlar, öz sağlamlıqlarını risk altına atırlar. Ancaq yüksək məsuliyyət, içdikləri and əlbəttə ki, onları bu işlərə sövq edir. Xəstələr də həkimlərə böyük diqqətlə yanaşmalıdırlar. Bu, indiyədək dünyada görünməmiş xəstəlikdir və bu xəstəliyin yayılması templəri də bizə bəlli deyil. İnkişaf etmiş bir neçə ölkədə artıq bu xəstəlik bir-iki gün ərzində geniş vüsət alır. Bu, onu göstərir ki, xəstəliyin sanki akkumulyasiya dövrü vardır, ondan sonra bu xəstəlik geniş yayılır. Bu xəstəliyin yayılmaması üçün ilk növbədə, bütün dövlət tədbirləri ilə yanaşı, vətəndaşlar da məsuliyyətli olmalıdırlar. Əgər kimsə özündə xəstəlik simptomu hiss edərsə, dərhal həkimlərə müraciət etməlidir, dərhal özünü təcrid etməlidir, kütləvi yerlərə getməməlidir, lazım olmadan kütləvi tədbirlərdə iştirak etməməlidir. Bu tədbirlər artıq ləğv olunub, amma istisna deyil ki, hansısa məsuliyyətsiz adamlar qaydalara uyğun olmayan hərəkətlər etsinlər. Mən bəri başdan hər kəsi xəbərdar etmək istəyirəm, ciddi tədbirlər görüləcək. Çünki bu, milli məsələdir, xalqımızın sağlamlığıdır, dövlətimizin təhlükəsizliyidir. Hər kəs bilsin, əgər martın 14-də elan olunmuş qaydalara kimsə əməl etməsə, çox ciddi məsuliyyətə cəlb ediləcək.

Təəssüflər ki, məsuliyyətsizliklə əlaqədar faktlar daxil olur. Eyni zamanda, biz açıq təxribatı da görürük. Bu təxribat haradan gəlir, həmin o beşinci kolondan, içimizdə oturan düşmənlərdən, özünü müxalifət adlandıran ünsürlərdən, xaricdən pul alan satqınlardan. Onların əsas məqsədi Azərbaycanı məhv etməkdir. Azərbaycan üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Baxın onların sosial şəbəkələrdəki çıxışlarına, nifrətlə, təxribatla doludur. Sanki istəyirlər ki, iğtişaş olsun. İstəyirlər ki, aləm qarışsın. İstəyirlər ki, panika olsun. Sonra da deyirlər ki, onlar Azərbaycan xalqının qayğıları ilə yaşayırlar. Onlar düşməndirlər və biz bunu açıq deməliyik. Bu xəstəlik hələ bilinmir nəyə gətirib çıxaracaq. Ona görə bu xəstəlik dövründə tamamilə yeni münasibətlər qaydaları mövcud olacaqdır. Hər kəs bunu bilsin və istisna edilmir ki, nə vaxtsa fövqəladə vəziyyət də elan oluna bilər. Belə olan halda, bu beşinci kolonun nümayəndələrinin təcrid edilməsi artıq tarixi zərurət olacaq. Azərbaycan xalqı onları tarixin zibilxanasına çoxdan atıbdır. Orada onlar artıq 30 ilə yaxındır ki, çürüyürlər. Amma biz imkan verə bilmərik ki, anti-Azərbaycan qüvvələr, beşinci kolon, milli satqınlar bu vəziyyətdən istifadə edib hansısa təxribat törətsinlər. Hər kəs bunu bilsin. Bizim siyasətimiz birmənalıdır, bizim iradəmiz qətidir. Biz hər zaman olduğu kimi, Azərbaycan xalqının problemlərini həll edirik və həll edəcəyik. İndiki vəziyyətdə, koronavirus dövründə Azərbaycan dövlətinin addımları bir daha onu göstərir ki, bizim üçün Azərbaycan xalqının sağlamlığı, təhlükəsizliyi, rifahı hər şeydən üstündür və buna nail olmaq üçün biz istənilən addıma gedəcəyik. Heç kimin bu məsələ ilə bağlı şübhəsi olmasın.

**Əziz həmvətənlər, bacılar və qardaşlar, dünya yeni dövrə qədəm qoyur. Bu dövrün xüsusiyyəti ondan ibarətdir ki, bilinmir bu xəstəliyin sonu nə vaxt olacaq və bu xəstəlik hansı fəsadlara gətirib çıxaracaq. Ona görə bir daha bütün Azərbaycan xalqını həmrəyliyə, məsuliyyətə dəvət edirəm. Əminəm ki, biz birlikdə bütün sınaqlardan üzüağ çıxacağıq.**

***Baki-xeber.com***

# Prezidentin mühafizə işinin təkmilləşdirilməsi dövrün tələbinə tam adekvat islahat kimi...

**Məlum olduğu kimi, Prezident İlham Əliyev xüsusi dövlət mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında Fərman imzalayıb. Fərmana əsasən, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ləğv edilib. Ləğv edilmiş Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin əsasında aşağıdakı dövlət orqanları yaradılır:**

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti;

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti;

Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi.

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi müvafiq olaraq əsasnamələrinin, strukturlarının və ali zabit heyəti vəzifələrinin siyahılarının layihələrini, habelə hərbi qulluqçuları və işçilərinin say həddi barədə təkliflərini 2 ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi müvafiq əsasnamələri təsdiq edilənədək Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 dekabr tarixli, 794 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti haqqında Əsasnamə"də müvafiq hissələrdə nəzərdə tutulan vəzifələrin həyata keçirilməsini təmin etməlidir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Milli Qvardiyasının statusu haqqında" qanun layihəsini 2 ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməli, bu Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

Prezidentin mühafizə işinin təkmilləşdirilməsi dövrün tələbinə uyğun olan tam adekvat islahat kimi dəyərləndirilə bilərmi?

Vaxtilə Prezidentin mühafizəsini həyata keçirən Milli Qvardiya adlı qurumun komandiri olmuş polkovnik Əzizağa Süleymanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu sahədə aparılan islahatı təqdir etmək lazımdır: "Bu sahədə kifayət qədər təcrübəsi olan və çalışmış bir şəxs kimi deyə bilərəm ki, ölkə başçısının mühafizəsi ilə ayrıca qurum məşğul olmalıdır. 1993-cü ilə kimi bu funksiyanı mənim komandiri olduğum Milli Qvardiya həyata keçirirdi. Sonra həmin qurumun bazası əsasında Xüsusi Dövlət Mühafizə Xidməti yaradıldı. Həmin qurumun tərkibinə çoxlu sayda idarə daxil edildi. Ştat çox şişdi. Təsəvvür edin ki, Prezidentin mühafizəsini təşkil edən qurumun tərkibində rabitəyə, poçt daşınmalarına, boruların mühafizəsinə nəzarət edən idarələr vardı. Ümumilikdə, 20 idarə və iki ayrı qurum XDMX-də birləşirdi. Hər bir idarəyə də ayrıca general rəhbərlik edirdi. İdarə rəislərinin elə bir geniş səlahiyyəti yox idi. Xırda bir məsələni də həll etmək üçün onlar rəislə məsləhətləşməli olurdular. Yəni generalların kimisə işə götürmək, işdən azad etmək kimi səlahiyyətləri yox idi. Eyni zamanda, xərc də böyük idi. Deyilən sayda şəxsi heyəti saxlamaq üçün dövlət büdcəsindən külli miqdarda vəsait gedirdi. Prezident bütün bunları nəzərə alıb, doğru addım atdı. Bu, eyni zamanda, Prezidentin təhlükəsizliyini təmin edəcək ayrıca qurumun daha effektiv fəaliyyətinə stimul verəcək. Çünki müxtəlif funksiyaları icra edən qurumların bir-birindən ayrı fəaliyyət göstərməsi işin effektivliyini, fəaliyyətə nəzarəti azaldırdı. Əvvəl də bu işlə ayrıca Milli Qvardiya məşğul olurdu. Hesab edirəm ki, ad başqa olsa da, yenidən həmin sistemə keçildi".

### *Əzizağa Süleymanov: "...Prezidentin təhlükəsizliyini təmin edəcək ayrıca qurumun daha effektiv fəaliyyətinə stimul verəcək"*



Keçmiş komandirin sözlərinə görə, ölkə başçısının təhlükəsizliyinin yüksək səviyyədə qorunmasına hər zaman ehtiyac olub: "Atılan addımlar həm də bu reallıqdan doğur və işin daha da təkmil aparılması istəyini şərtləndirir. Tamamilə başqa funksiyaları icra edən qurumların ölkə başçısını mühafizə edən qurumdan ayrılması çoxdan lazım idi. Bununla bağlı daha incə detallar var ki, media üçün söyləmək doğru sayılmaz. Ümumi anlamda, mənə doğma olan bu sahədəki islahatı dəstəkləyirəm".

***Məhəmmədəli QƏRİBLİ***

# AŞPA və ATƏT rəsmiləri koronavirus dövründə Azərbaycanda yenidən "siyasi məhbus" nağıllarına başlayır

**AŞPA-nın Azərbaycanda siyasi məhbuslar üzrə məruzəçisi Sunna Evarsdottir jurnalist Əfqan Muxtarlının azad edilməsini alqışlayıb. Məruzəçi bildirib ki, Muxtarlının ardınca bütün siyasi məhbuslar azad edilməlidir: "Cənab Muxtarlının sınağının, nəhayət, bitdiyini və onun ailəsinə qovuşduğunu eşitmək mənim üçün çox xoşdur.**



Assambleya artıq Muxtarlını siyasi məhbus kimi tanıyıb, mən ötən ilin sentyabrında Azərbaycanda səfərdə olarkən ona baş çəkmişdim. Azərbaycan hakimiyyəti ölkənin Avropa Şurasının üzvü və Avropa İnsan Hüquqları Konvensiyasının iştirakçısı kimi öz öhdəliklərini yerinə yetirməsi, bütün siyasi məhbusları azad etməsi və bu sahədəki əsas sistemli problemləri həll etməsi üçün qətiyyətli addımlar atmalıdır".

Öz növbəsində, ATƏT-in KİV azadlığı məsələləri üzrə nümayəndəsi Arlem Dezir də bənzər mövqe sərgiləyib. Belə ki, o, Ə.Muxtarlının azad edilməsini dəstəkləyib: "Çoxdan gözlənilən azərbaycanlı jurnalist Əfqan Muxtarlının azadlığa buraxılmasını alqışlayıram. Onun işi ilə bağlı dəfələrlə Azərbaycan hakimiyyətinə müraciət etmişdim".

### *Vüqar Rəhimzadə: "Bu problem bizdə olmadığı halda, sözügedən qurumlar belə yalan iddia ilə çıxış edirlər"*

Göründüyü kimi, yenə də sözügedən təşkilatlar Azərbaycanla bağlı bir sıra məsələləri təhrif edir və buna hər vasitə ilə siyasi don geydirməyə çalışırlar. Məgər həbsxanalarda siyasi motivlə cəza çəkən məhbus var? Məsələ ondadır ki, Azərbaycan siyasi məhbus məsələsini çoxdan qapadıb. Buna baxmayaraq, zaman-zaman bəzi beynəlxalq təşkilatlar guya Azərbaycanda belə bir problemin olduğunu uydururlar.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, AŞPA və ATƏT rəsmiləri Azərbaycanda siyasi məhbus probleminin olmadığını yaxşı bilirlər: "Sadəcə, bunu süni şəkildə uydurub Azərbaycana qarşı siyasi təzyiq vasitəsi kimi istifadə etmək istəyirlər. Bir sıra beynəlxalq qurumlar davamlı və sistemli şəkildə bəzi ölkələrə təzyiq etməkdən ötrü siyasi məhbus terminindən istifadə edirlər. Azərbaycana edilən təzyiqlərin kökündə ölkənin müstəqil siyasət yeritməsi dayanır. Görünən odur ki, bəzi Avropa təsisatları bunu həzm edə bilmirlər. Azərbaycanda siyasi məhbus problemi yoxdur. Bu problem bizdə olmadığı halda, AŞPA ilə ATƏT belə yalan iddia ilə çıxış edirlər. Hər bir fərd törətdiyi əmələ görə məsuliyyət daşıyır.

*"Azərbaycanda kimliyinə və siyasi mənsubiyyətinə görə məsuliyyətə cəlb olunan yoxdur"*

Azərbaycanda kimliyinə və siyasi mənsubiyyətinə görə məsuliyyətə cəlb olunan yoxdur. Ancaq görünən odur ki, sözügedən qurumlar bunu süni şəkildə gündəmdə saxlamaq istəyir və bundan hansısa siyasi məqsədlər naminə faydalanmaq niyyəti güdürlər. Ona görə də belə yanaşmalar həqiqətdən uzaqdır. Hesab edirəm ki, bu cür fikirlər qeyri-obyektivdir və həqiqəti əks etdirmir. Bu fikirlər reallıqdan uzaq olduğu üçün qərəzli xarakterlidir. O üzdən, səslənən fikirlər qəbuledilməzdir".

***Vidadi ORDAHALLI***

# Koronavirusa görə Dağlıq Qarabağda ermənilərin atəşkəs pozuntuları üzərində nəzarət də təxirə salındı...

**ATƏT regiondakı monitorinqləri dayandırır. Bu barədə ATƏT-in fəaliyyətdə olan sədrinin nümayəndəsi, səfir Anjey Kasprşikin bəyanatında deyilir. Bəyanatda bildirilir: "Koronavirusun yayılması ilə əlaqədar mövcud vəziyyət bütün bölgədə beynəlxalq sərhədlərin bağlanmasına, beynəlxalq və yerli heyətin səyahətləri üçün məhdudiyyətlərə səbəb oldu.**

İnfeksiya risqinin azaldılması üçün, həmçinin, şəxsi təmaslara da məhdudiyyətlər mövcuddur. Yuxarıda göstərilənlərə əsasən və tərəflərlə məsləhətləşmələrdən sonra bu məhdudiyyətlər aradan qaldırılana qədər monitorinqlərin dayandırılması qərara alındı. Eyni zamanda, mən müvafiq hərbi hakimiyyətlərlə əlaqə saxlamağa davam edirəm".

Xatırladaq ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə ATƏT-in Minsk Qrupu 1997-ci ildə Rusiya, ABŞ və Fransanın həmsədrliyi üzrə formalaşıb. 23 ildir həmsədrlər münaqişənin tənzimlənməsi üçün regiona müxtəlif səfərlər edir, cəbhə xəttində monitorinqlər keçirir və ölkə liderlərinin görüşlərini təşkil etməyə çalışırlar.

Atəşkəsə nəzarət mexanizmi ilə bağlı monitorinqlərin təxirə salınması hansı nəticələrə səbəb ola bilər?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, monitorinqlərin dayandırılmasını düzgün addım saymır: "Çünki həmin missiyanı həyata keçirən heyətin sayı məhduddur. Cəmi 10-15 nəfərdir. Onlar da avtobusla, ictimai nəqliyyatla ora getmirlər ki, epidemiya onları yaxalaya bilsin. Xüsusi zirehli maşınlarda ora gedirlərsə, epidemiyaya tutulma risqi də azdır. Kasprşik də sanki bəhanə axtarırmış kimi davranır. Onsuz da onun monitorinqləri bir nəticə vermir. Ermənilərin bu fürsətdən istifadə edəcəyi qənaətində deyiləm. Onlar onsuz da Azərbaycan Ordusunun gücünə tam bələddirlər. Müdafiə naziri bu

***Qabil Hüseynli:** "Ermənilərin bu fürsətdən istifadə edəcəyi qənaətində deyiləm"*



günlərdə ön xətdə olub və tapşırıq verib ki, ermənilərin istənilən atəşkəsi pozma cəhdinə layiqli cavab verilsin.

Ermənilər Azərbaycan Ordusunun nəyə qadir olduğunu 2016-cı ilin aprel ayında görüblər. Hesab edirəm ki, danışıqlar prosesində konkret addımların atılmasının vaxtı çatıb. Bu istiqamətdə nəticə olmayacaqsa, onda monitorinqlərə də ehtiyac qalmayacaq. Qarabağ problemi çox həssasdır. Bunu xəstəliklərin ümidinə buraxmaq olmaz. Biz öz tədbirlərimizi görməliyik. Ayıq-sayıqlığımızı itirməməliyik".

*Məhəmmədəli QƏRİBLİ*

# Virus təhlükəsi Ermənistan kimi siyasi-iqtisadi zəif ölkələrdə hakimiyyət dəyişikliyi törədə bilər

**Ermənistanda koronavirus gözlənildiyindən də sürətlə yayılmağa başlayıb. Son rəsmi məlumata görə, ölkədə COVİD-19-a yoluxanların sayı 110-a yaxınlaşıb. 444 nəfər karantinə alınıb, daha 799 nəfər isə öz evlərində təcrid olunmağı xahiş ediblər. Yoluxanların 81%-i erməni katolikosun oturduğu Eçmiədzində qeydə alınıb.**

Cəmi 2-3 milyon əhalisi olan kasıb bir ölkə üçün bunlar kifayət qədər böyük rəqəmdir. Onu da bildirək ki, bir neçə gün öncə hökumət Ermənistanda aprelin 14-dək, bir aylıq fövqəladə vəziyyət elan edib. Hökumət həm də bu kimi zəruri ön tədbirlərə gec başlamaqda ittiham olunur.

Bu arada koronavirusla əlaqədar Ermənistanda yaranan situasiya, o sırada qonşu İran və Gürcüstanla sərhədin bağlanması ucbatından iqtisadiyyatın pisləşməsi əhaliyə "iqtisadi inqilab" vədi verən Paşinyan hökumətini həddən artıq qəliz vəziyyətə salıb. Bu haqda yazan "Qraparak" qəzeti qeyd edir ki, vəziyyətdən çıxmaq üçün indiki hökumət nümayəndələri hətta keçmiş hökumətin təmsilçilərinə müraciət etmək zorunda qalıb.

Ermənistan kimi zəif iqtisadiyyata malik olan ölkədə koronavirusun sürətlə yayılması hakimiyyətin dəyişməsi kimi proseslərə yol aça bilərmi?

İctimai-Siyasi Proseslər Beynəlxalq Ələqələr Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, koronavirusa qədər də Ermənistan iqtisadiyyatında tənəzzül yaşanırdı və indiki vəziyyət daha acınacaqlı xarakter alıb: "Ermənistan iqtisadiyyatının çöküşünü şərtləndirən vacib səbəblər var.

Həmin ölkə deyilən amilləri aradan qaldırmaqda maraqlı görünmür. Ölkənin vəziyyətini gərginləşdirən başlıca amil işğalçı siyasəti səbəbindən blokadada qalmasıdır. Ermənistanın, faktiki olaraq, iki qonşusu ilə sərhədi bağlıdır.

Hələ koronavirusa qədər olan dönəmdə belə Ermənistan əhalisi dolanışığın olmaması ucbatından ölkəni tərk edirdi. Pandemiya ilə bağlı vəziyyətin isə hə-

***Samir Adıgözəlli:** "Vəziyyət belə davam edərsə, Ermənistanda hakimiyyət çevrilişi qaçılmaz olacaq"*



min ölkədə daha acınacaqlı olduğunu görürük. Bu da təbiidir. Çünki heç bir ölkənin sığortalanmadığı bu epidemiyadan qorunmaq üçün ciddi vəsaitlər tələb olunur. Ermənistan bunu etmək gücündə deyil. Mən sosial şəbəkələrdən Paşinyanın İrəvan küçələrini gəzib apteklərə baş çəkdiyini gördüm. Aydın sezilir ki, çatışmazlıqlar mövcuddur.

**Bu hələ bizə göstəriləndir, görün arxa planda nələr yaşanır? Statistik məlumatlar göstərir ki, pandemiya ilə bağlı Ermənistanı qarşıda daha ağır sınaq gözləyir. Paşinyan hakimiyyətinə qarşı xalqda ciddi aqressiya var. Çünki onlar söz verib çevrilişlə hakimiyyətə gəldikləri vədləri yerinə yetirməyiblər. Koronavirus bəlası həmin ölkədə yeni siyasi narazılıq dalğasını qaldıra bilər. Vəziyyət belə davam edərsə, Ermənistanda hakimiyyət çevrilişi qaçılmaz olacaq".**

*Məhəmmədəli QƏRİBLİ*

# Azərbaycanda "Koronavirusla mübarizə könüllüləri"nin dövrü nə vaxt başlayacaq...

**Son zamanlaradək elm üçün naməlum qalan virus kəskin ağciyər xəstəliklərinə səbəb olur. "COVID-19" adı verilən koronavirus artıq Azərbaycan da daxil olmaqla, 136 ölkə və ərazidə yayılıb. Dünya boyunca, virusun yayıldığı Çin də daxil, yüz mindən çox insan koronavirusa yoluxub.**

*"Könüllülər marketlərdən, o cümlədən, apteklərdən ərzaq mallarının və dərmanların yaşlı insanlara çatdırılmasını təmin edə bilərlər"*

***Adil Əliyev:** "...hazırkı həssas məqamda könüllülər qrupunun yaradılması məqsədəuyğun olardı"*

Hər bir ölkə koronavirusun yayılmasının qarşısının alınması məqsədilə müəyyən tədbirlər həyata keçirir.

Azərbaycanda da bu istiqamətdə işlər görülməkdə davam edir. Məlum olduğu kimi, koronavirusun ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə Nazirlər Kabinetinin yanında Operativ qərargah yaradılıb. Operativ qərargahın müəyyən etdiyi tədbirlər, işlər həyata keçirilməkdə davam edir.

Bununla yanaşı, təklif olunur ki, koronavirusla mübarizə aparılarkən ölkədə könüllülər hərəkatı yaradılsın. Məlumdur ki, könüllülük dövründə gənclər respublikamızda aparılan islahatların və inkişafın fəal iştirakçısına çevriliblər, "Eurovision" mahnı müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində könüllülərin rolu əvəzsiz olub.

Milli Məclisin vitse-spikeri Adil Əliyevin sözlərinə görə, koronavirus bəşəriyyət üçün həm böyük təhlükə mənbəyi, həm də bir sınaqdır. Təxminən hər yüz ildən bir bəşəriyyət oxşar virusla üzləşir. 3 ay əvvəl Çində başlayan epidemiya başqa qitələrdə və dövlətlərdə yaşayanları o qədər də narahat etmirdi, bir çoxu təhlükənin sovuşacağını düşünürdü. Bu gün isə mənzərə tamamilə fərqlidir, koronavirus az qala dövlətlərin tamamını öz cənginə alıb, hətta uzaq və qarlı Qrenlandiyada virusa yoluxan var: "Bu arada, virusla mübarizədə yaşlı insanlarımız ən həssas qrup sayılır. Yaşlı insanlarımızı qorumalıyıq! Bu məqsədlə seçildiyim dairədə, həmişə olduğu kimi, Novruz bayramında evlərə çatdırmaqla yaşlı nəslə ərzaq dəstəyimizi əsirgəməyəcəyik. Bununla bərabər, onun üzərində də düşünmək lazımdır ki, indiki həssas məqamda yaşlı insanlara daha hansı yardımı və dəstəyi edə bilərik? Koronavirusla bağlı bir çox ölkədə marketlərdən ərzağın evə çatdırılması xidməti işə düşüb. Azərbaycanda da bu haqda müzakirələr başlayıb.



Aydındır ki, hər şəhərdə, hər rayonda, hər küçədə və hər binada yaşlı insanlara marketlərdən ərzağın çatdırılması həmin marketdə çalışanların imkanı xaricindədir. Hələ ki, bu işlə peşəkar səviyyədə məşğul olan şirkətlərimiz də çox deyil. Belə isə biz bu işə gəncləri səfərbər edə bilərik. Onsuz da dərslərə ara verilib. Dövlət başçısının 2020-ci ili "Könüllülər ili" elan etdiyini nəzərə alaraq, hazırkı həssas məqamda könüllülər qrupunun yaradılması məqsədəuyğun olardı. Həmin könüllülər marketlərdən, o cümlədən, apteklərdən ərzaq mallarının və dərmanların yaşlı insanlara çatdırılmasını təmin edə bilərlər".

***Günel CƏLİLOVA***

# ABŞ-da iki konqresmen də yoluxdu, Moskvada ilk ölüm faktı qeydə alındı, Avropa fəlakətin mərkəzi olaraq qalır...

**Dünyada koronavirusdan ölənlərin sayı 9 min nəfəri ötüb. Son bir neçə saat ərzində İranda 149, Almaniyada 3, İspaniyada 2 nəfərin ölümü qeydə alınıb. Son statistik məlumatlara əsasən, koronavirusdan ölənlərin sayı 9 148 nəfər təşkil edir. Ümumilikdə, dünyada 222 973 nəfər koronavirusa yoluxub.**

Baki-xeber.com xəbər verir ki, Avropa hələ də virusun yayıldığı əsas bölgə kimi qalır. Almaniyada virusdan 28 nəfər ölüb, yoluxanların sayı 13 min 93-ə yüksəlib. Fransada isə 24 saatda 89 nəfər ölüb. Ölkədə ölənlərin sayının ümumilikdə 264 nəfər olduğu açıqlanıb. Yoluxanların sayı isə 9134-ə çatıb.

Çindən sonra ən çox ölüm hadisəsinin baş verdiyi İtaliya dəhşətli xəbərlər gəlməkdə davam edir. Ölkədə ötən gün virusdan ölənlərin sayı 475 nəfər artaraq 2978-ə çatıb. Yoluxanların sayı isə 29 minə yüksəlib.

Britaniyada ölənlərin sayı 104-ə çatıb. Ölkədə bütün təhsil müəssisələri bağlanıb. Avropa İttifaqının Böyük Britaniya ilə "Brexit" danışıqları üzrə səlahiyyətli nümayəndəsi Mişel Barnye də koronavirusa yoluxub. Siyasətçi öz "Twitter" səhifəsində koronavirus üçün testdən keçdiyini və nəticənin müsbət olduğunu bildirib.

M.Barnye özünü yaxşı hiss etdiyini və könüllü şəkildə karantinə alındığını qeyd edib.

ABŞ-da isə yoluxanların sayı 9345, ölənlərin sayı 150-yə çatıb. ABŞ-da iki konqresmen də koronavirusa yoluxub. Yuta ştatını təmsil edən demokrat Benjamin Makadams və respublikaçı konqresmen Mario Dias-Balartında virus aşkarlanıb.

Beynəlxalq Əmək Təşkilatı koronavirus pandemiyası ilə əlaqədar genişmiqyaslı işsizlik proqnozlaşdırıb. Mütəxəssislər hesab edir ki, dövlətlər işçilərin müdafiəsi üçün təcili tədbirlər görməsə, 25 milyon şəxs iş yerlərindən məhrum ola bilər.

Müqayisə üçün qeyd edək ki, 2008-ci ildə qlobal maliyyə böhranı nəticəsində 22 milyon nəfər işsiz qalmışdı.

Rusiyada koronavirusdan ilk ölüm faktı qeydə alınıb. Moskvada xəstəxanaların birində 79 yaşlı qadın həyatını itirib. Onun COVID-19-la yanaşı digər xəstəliklərdən də əziyyət çəkdiyi bildirilib.




Qeyd edək ki, bu günə qədər ölkədə 147 yoluxma faktı qeydə alınıb.

İranda ötən sutka ərzində yeni koronavirusdan 149 nəfər ölüb. İranın səhiyyə, müalicə və tibbi təhsil nazirinin müavini Əlirza Rəisinin sözlərinə görə, ümumilikdə İranda bu virus nəticəsində 1 284 nəfər ölüb. Nazirlik rəsmisi ötən sutkada 1 046 nəfərin koronavirusa yoluxduğunu deyib.

Rəisi əlavə edib ki, ümumilikdə İranda 18 407 nəfər bu virusa yoluxub. İndiyədək virusdan sağalanların sayı 5 979 nəfər olub.

İranın Səhiyyə, Müalicə, Tibbi Təhsil Nazirliyinin mətbuat xidmətinin müdiri Kiyanuş Cahanpur isə İranda koronavirus nəticəsində hər 10 dəqiqədə bir nəfərin öldüyünü açıqlayıb. Onun sözlərinə görə, bundan əlavə, hər 1 saatda 50 nəfər yeni virusa yoluxur.

Nazirlik rəsmisi bu məlumatların İran vətəndaşları tərəfindən ciddiyə alınmasını vurğulayıb.

Ermənistanda koronavirusa yoluxanların sayı 115 nəfərə çatıb. Ölkənin Səhiyyə Nazirliyinin açıqlamasına görə, son sutka ərzində yoluxanların sayı 5 nəfər artıb. İki nəfərin vəziyyəti ağır olaraq qiymətləndirilir.

**Ermənistanda son proseslər Moskvanın dəstəyilə bu ölkədə Nikol Paşinyan iqtidarının devrilmə planının işə salındığını göstərir. Bu xüsusda görünən odur ki, Kremlin istifadə edəcəyi əsas fiqur da Ermənistan Milli Təhlükəsizlik Xidmətinin sabiq rəhbəri Artur Vanetsyan olacaq.**

# Moskva Paşinyanın ipini kəsdi



Sonuncu artıq "Qarabağ klanı", xüsusən də bu klanın əsas üzvlərindən sayılan Köçəryan ailəsi ilə gücünü birləşdirir.

"Jamanak" qəzeti yazır ki, eks-prezident Robert Köçəryan Vanetsyanla birgə partiya yaratmağı planlaşdırır. Qeyd edək ki, bundan öncə Vanetsyan partiya yaradacağını və bunun Ermənistanın ən böyük müxalifət partiyası olacağını açıqlamışdı. Nəşr yazır ki, Vanetsyan aprel ayında keçirməyi planlaşdırdığı qurultayın "tarixi hadisə" olacağını bildirib. Lakin "Jamanak" yeni partiyada kimlərin iştirak edəcəyinin qaranlıq qaldığını bildirib:"Vanetsyanın öz partiyası ilə birdən-birə meydana çıxması suallar yaradır. Hazırkı hökumətə etiraz edərək belə bir işə əl atması, hər halda, qarşı tərəfdən birmənalı qarşılanmır. Partiyanın harada qurulduğu, kimlərin dəstək verdiyi yönündə ortaya çıxan suallar da hələlik cavabsız qalır. Gözlənilən qurultayda kimlərin iştirak edəcəyini təsəvvür etmək çox çətindir". Nikol Paşinyan hökumətinə yaxın media qurumları və ekspertlər isə Vanetsyanın xarici dövlətin sifarişi ilə belə bir işə girişdiyini istisna etmir. Söhbət Rusiyadan gedir.

Elə Rusiyanın Paşinyan əleyhdarlarına verdiyi sığınacaq da bu ehtimalı yüksəldir. Belə ki, Rusiya Ermənistanda ittiham edilən 3-cü şəxsi azadlığa buraxıb və ona sığınacaq verib. "1 Mart" cinayəti üzrə xüsusi olaraq sübutları saxtalaşdırmaqda ittiham edilən və 2018-ci ilin oktyabr ayından etibarən axtarışda olan "1 Mart" cinayətinin araşdırılması üzrə istintaq qrupunun sabiq rəhbəri Vahaqn Harutyunyanın həbsi ləğv edilib və Rusiya hüquq-mühafizə orqanları tərəfindən o, sərbəst buraxılıb. Erməni siyasi ekspert Sarkis Artsruni bildirir ki, bu, Moskvanın Paşinyana növbəti zərbəsidir: "Harutyunyanın həbs qərarı ləğv edilib və hüquq-mühafizə orqanları tərəfindən sərbəst buraxılıb. Bununla da Rusiya hakimiyyəti istədiyi halda "1 Mart" cinayəti üzrə "qaçqınları" həbs edə biləcəyinə işarə etmiş olub. Ancaq növbəti addımları ilə ruslar "1 Mart" cinayətinin açılmasına, xüsusilə inqilaba qarşı, münasibətlərini nümayiş etdirmiş olublar. Hər iki ölkə rəhbərləri, rus-erməni münasibətlərində qeydə alınan yeni səviyyədən danışmalarına baxmayaraq, Moskvada açıq-aydın şəkildə "1 Mart" cinayətinin açılmasını dəstəkləmirlər".

Bu fonda Paşinyan Harutyunyanın ekstradisiyasını gözlədiyi bir vaxtda Moskva yenə onun ümidlərini doğrultmayıb. Qeyd edək ki, eyni məsələ Ermənistan Məhkəmə Qərarlarının Məcburi İcrası Komitəsinin keçmiş rəhbəri Miqran Poqosyan, sabiq müdafiə naziri Mikayel Harutyunyanla da bağlı baş vermişdi. Yəni hər üç halda Rusiya ittiham olunan şəxsləri Ermənistana təhvil verməkdən imtina edib. Erməni hüquq müdafiəçisi Artur Sakuntsun sözlərinə görə, Rusiya hakimiyyəti açıq şəkildə Ermənistanda mövcud hakimiyyəti saymır:"Rusiya hakimiyyətdən uzaqlaşdırılan keçmiş rejimin əsas xadimlərinə himayədarlıq edir. Rusiya bu cür davranış tərzi ilə istənilən halda Ermənistandakı suverenliyin bərpasının məntiqi prosesi ilə barışmaq istəmir və Ermənistanı özünün tabeliyində olan ərazi kimi qəbul etməyə davam edir".

Ermənistan hakimiyyətinin hansı nəticələri çıxarmalı olduğuna dair verilən suala cavabında hüquq müdafiəçisi qeyd edib ki, çıxarılacaq yeganə nəticə var: "Rusiya və Ermənistanın guya strateji tərəfdaş olduqlarına dair siyasi səviyyədə verilən bütün bəyanatlar həqiqəti əks etdirmir. Bu strateji tərəfdaşlığın müxtəlif ölçülərinin birini digərindən ayırmaq olmaz".

Erməni hüquq müdafiəçisi Marina Poqosyan isə əmin edir ki, Artur Davtyan Ermənistanın baş prokuroru olduğu müddət ərzində Vahaqn Harutyunyan məsuliyyətə cəlb edilməyəcək, ona qarşı heç bir təhlükə olmayacaq: "Vahaqn Harutyunyan elə əvvəldən olduqca müdafiə edilmiş şəkildə olub. Onun axtarışı formal xarakter daşıyıb. Ona görə ki, ona qarşı heç həbs barədə sanksiya verilməyib. Bir gün Artur Davtyan cəsarət edib məhkəmə həbs barədə sanksiya verməyib deyərsə, demək yalan danışır.

Çünki birinci instansiya məhkəməsi, kobud pozuntularla olsa da, həbs barədə sanksiya verib. Bu da Artur Davtyan tərəfindən təşkil edilən şou idi. Çünki baş prokuror da Moskvanın adamıdır". Poqosyanın sözlərinə görə, Artur Davtyan vəzifədə olduğu müddət boyunca heç bir çinayətkar, o cümlədən Serj Sarkisyan, Robert Köçəryan, Vahaqn Harutyunyan və digərləri cəzalandırılmayacaq: "Bundan əvvəl Miqran Poqosyana qarşı ittiham irəli sürülən kimi onun Moskvaya uçması faktını xatırladaq. Daha sonra həbs edilən Poqosyan qısa zaman sonra azad edilib. İndi isə Rusiyada azad şəkildə hərəkət edir. Artur Davtyan tərəfindən Miqran Poqosyan yola salınıb və ona qarşı ittihama xitam verilib. Bütün bunlar Davtyan tərəfindən törədilib. Bu şəxs Moskvadan gələn göstərişləri icra edir. Moskva isə Paşinyanı qəbul etmək istəmir". Bunlar fonunda hesab edilir ki, Kreml Paşinyanın əleyhdarları, xüsusən də Artur Vanetsyan vasitəsilə baş naziri devirməkdə israrlıdır.

***Nahid SALAYEV***

# Neft bazarının çöküşü dünyanı ayağa qaldırır - ABŞ-Səudiyyə münasibətləri pozulur, 13 senator kralı hədələdi...

**Dünya birjalarında xam neftin qiyməti hələ də ucuzlaşmaqda davam edir. İstehsalçı ölkədər, ümumilikdə dünya iqtisadiyyatı bundan ciddi zərər görür. ABŞ, Avropa fond birjalarında qiymətlərin sürətlə aşağı düşməsi məhz neftin ucuzlaşmasından qaynaqlanan əsas amillərdən sayılır.**

Hesab edilir ki, ucuzlaşma dayanmasa, qlobal iqtisadiyyatda yeni və daha genişmiqyaslı böhranın olması qaçılmazdır.

Hələlik isə proseslər təhlükəli istiqamətdə gedir və neftin qiyməti son 17 ilin minimumuna düşüb. Hasilatçılar arasında ziddiyyət və koronavirusla əlaqədar artan tənəzzül təhlükəsi səbəbindən neftin qiyməti 2003-cü ildən bəri ən aşağı səviyyəyə enib. "Light" markalı xam neftin bir barrelinin qiyməti son 18 ildə ilk dəfə 25 dollardan aşağı enib. Bu markalı neftin bir barreli Nyu-York birjasında 23,8 dollara alıcı axtarır. Bu, 2002-ci ildən bu vaxtadək ən aşağı səviyyədir. "Brent" neftinin bir barreli isə London birjasında 26 dollara satılır. Azərbaycan neftinin də qiyməti ucuzlaşıb. "Azeri Light" markalı neftin bir barrelinin qiyməti 4,64 dollar ucuzlaşaraq 24,53 dollar təşkil edib. Xatırladaq ki, neftin qiyməti cari ilin əvvəlində 70 dollar, martın əvvəlində isə 50 dollardan çox olub. Amma son bir neçə gündə qiymətlər sürətlə aşağı düşüb. Bu arada o da məlum olub ki, dünyadakı neft saxlancları eyni vaxtda yanacağa olan tələbatın azalması və bazarda təklifin həddindən artıq olması səbəbindən artıq yaxın aylarda ən yüksək dolma səviyyəsinə çata bilər. Britaniyanın "Financial Times" qəzeti yazır ki, neftə tələbat rekord sürətlə azalmağa başlaya bilər, çünki sənaye cəhətdən inkişaf etmiş bir çox ölkə təcrid olunacaq və böyük şəhərlər koronavirusun yayılmasını yavaşlatmaq üçün qətiyyətli tədbirlər görəcəklər. Ekspertlərin hesablamasına görə, aprel ayında tələbat gündə 5 milyon barrel azala bilər. İqtisadiyyat yavaşlamağa davam edəcəyi təqdirdə isə tələbin azalması artıq yazda gündəlik 25 milyon barrelə çata bilər:"Digər tərəfdən, neft bazarındakı qiymət müharibəsi yalnız izafi təklifi artıracaq. Belə ki, Səudiyyə Ərəbistanından neft təchizatı 25% artacaq, Rusiya və BƏƏ də bazar payı uğrunda mübarizədə hasilatı artıracaq. Bütün bunlar gündəlik neft artıqlığının 8 milyon barrel olmasına gətirib çıxara bilər. Eyni zamanda, neft qiymətləri aşağı düşməyə davam edə bilər ki, bu da bəzi istehsalçıları hasilat həcmini azaltmağa və ya yataqları bağlamağa stimullaşdırmalıdır. Beləliklə, dünyanın yerüstü saxlanc gücləri bazarda yaranacaq tələb və təklif arasındakı fərqi tam şəkildə qarşılaya bilməyəcək. Treyderlərin hesablamalarına görə, saxlancların dolma səviyyəsi artıq 61%-dən çoxdur və altı aydan az müddətdə bu həcm tükənəcək". Qəzet yazır ki, belə vəziyyətdə treyderlər özləri üçün ən bahalı saxlama metoduna, yəni dənizdəki tankerlərə keçməli olacaqlar. Ancaq bunu etmək olduqca çətin olacaq, çünki Səudiyyə Ərəbistanının neft bazarını "su üstündə saxlamaq" istəyi tankerlərin qiymətinin iki dəfədən çox artmasına səbəb olub.



Xatırladaq ki, martın əvvəlində OPEC+ ölkələri neft hasilatını azaltmaq üzrə sazişin uzadılmasına razı olmadılar. OPEC koronavirus səbəbi ilə tələbin azalmasına və neftin qiymətinin aşağı düşməsinə cavab olaraq hasilatı 2020-ci ilin sonuna qədər əlavə olaraq gündəlik 1,5 milyon barrel azaltmağı təklif edib, amma Rusiya sazişin yalnız əvvəlki şərtlərlə uzadılmasına razılıq verib. Bundan sonra Səudiyyə Ərəbistanı hasilatı aprel ayından gündəlik 12,3 milyon barrelə qədər artırmağı planlaşdırdığını açıqlayıb. Buna cavab olaraq Rusiya hasilatı gündə 200-300 min barrel, gələcəkdə isə 500 min barrel artırmaq imkanını açıqlayıb. Belə vəziyyətdə, Səudiyyə Ərəbistanı və Rusiya da daxil olmaqla bütün hasilatçılar ucuzlaşmadan əziyyət çəkir. Səudiyyə Ərəbistanı sürətlə müflisləşir, Rusiyanın Rifah Fonduna toplanan vəsaitlər azalır. ABŞ şist neft hasilatçıları artıq böyük zərərlə qarşılaşır. Elə bu səbəbdəndir ki, ABŞ-dan olan 13 senator Səudiyyə Ərəbistanının şahzadəsi Məhəmməd bin Salmana məktub yazaraq onu neft hasilatını kəskin şəkildə artırmamağa çağırıb. Məktub müəlliflərinin hamısı prezident Donald Trampın da üzv olduğu Respublikaçı Partiyasını təmsil edir. Onlar neft bazarında çöküşün hər iki ölkənin uzun illərdir davam edən strateji tərəfdaşlığına zərər vuracağını bildiriblər. Senatorlar vurğulayır ki, Ər-Riyadın addımları koronavirus pandemiyası ilə bağlı qlobal böhran fonunda baş verir. Yaranmış vəziyyət onsuz da enerji bazarları və şirkətlərin sabitliyinə təsir edib. Ona görə də neft bazarında hasilatın artırılması tamamilə yersizdir. Senatorlar xatırladıb ki, ABŞ uzun illərdir Səudiyyə Ərəbistanını dəstəkləyir, buna cavab olaraq Krallıq dünya neft bazarında sabitliyin olacağına söz vermişdi:"Biz Krallığı dünya iqtisadiyyatının sabitləşməsində konstruktiv rol oynamağa və neft-qaz sektorunda həyəcanı aşağı salmağa dəvət edirik".

Bütün bunlar aşağı qiymətlərin əvvəllər nefti ucuzlaşdırmaq istəyən ABŞ-ın özünün də nə dərəcədə narahatlığına yol açdığını aydın göstərir. Yaranmış durumda Azərbaycan da OPEC+ analaşmasının davam edərək qiymətlərin məqbul həddə yüksəlməsini istəyir. Bununla yanaşı, Azərbaycan belə vəziyyətdə qeyri-neft sektorunun inkişafını daha dinamik hala gətirməklə iqtisadi zərərləri kompensasiya etməyə çalışır. Rusiyalı ekspert Aleksandr Sobko isə xatırladır ki, Bakı cari ildən Avropaya da qaz satışını həyata keçirərək neft zərərlərini mavi yanacaq hesabına kompensasiya edə bilər:"Neft bazarında baş verən hadisələr və koronavirus problemi qaz mövzusunu ikinci plana çəkib. Ancaq neft iki dəfə ucuzlaşdığı halda, qazın qiyməti dəyişmir. Bu mənada Rusiya, Azərbaycan kimi qaz satışını həyata keçirən ölkələr neft zərərlərini müəyyən qədər qaz satışı hesabına kompensasiya edə biləcək".

***Ramil QULİYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan ordusunda yeni dağılma təzahürləri ortaya çıxdı...

**Ermənistanda koronavirusun sürətli yayılması bu ölkədə ciddi həyəcan təbilinin çalınması, hökumətin sözügedən problemə qarşı effektiv mübarizə aparmaması ittihamının çoxalması ilə müşayiət olunur. Belə fikirlər səslənir ki, koronavirus Ermənistan həyatının bütün sahələrinə, o cümlədən miqrasiyanın genişlənməsinə yeni təkan verəcək.**

Çünki ölkədə problemə qarşı səmərəli mübarizə imkanları yoxdur. Bu şəraitdə koronavirus təhdidindən qorunmaq üçün əhalinin yenidən başqa ölkələrə üz tutması gözlənilir. Erməni ekspert Ruben Yeqiyanan bu xüsusda vurğulayır ki, koronavirus belə sürətlə yayılmaqda davam etsə, bir çox ermənin ilk növbədə Rusiyaya üz tutması qaçılmaz olacaq:"Rusiyada səhiyyə bizimlə müqayisədə çox yüksəkdir. Həm də erməni ailələrinin böyük əksəriyyətinin Rusiyada yaxınları var. İmkanı daha yüksək olanların Avropaya keçməsi gözləniləndir. Yəni yaxın tezlikdə biz onsuz da ciddi problem olan miqrasiyanın miqyasının daha da genişlənməsini gözləyə bilərik"

Ekspert bildirir ki, bu halda problemli məqamlardan biri ordu ilə bağlı olacaq: "Yayda əsgərlərin tərxis olunması üçün növbəti addım atılmalıdır. Amma koronavirusun sürətli yayılması prosesi əngəlləyəcək. Başqa bir tərəfdən, koronavirus üzündən ölkəni tərk edənlərin sayının artması çağırış baxımından ciddi problem yarada bilər. Nəzərə almaq lazımdır ki, bizdə onsuz da demoqrafiya sarıdan məsələ çox ciddidir". Hazırda real vəziyyət həm də onu göstərir ki, Ermənistanda sistemli böhran yaşanır. Rusiyalı ekspert Yevgeni Mixaylov bu fonda bildirir ki, Ermənistandakı demoqrafik və sosial böhran silahlı qüvvələrdə döyüş hazırlığının səviyyəsinə də mənfi təsir göstərir. Onun fikrincə, Ermənistandakı mövcud demoqrafik fəlakət məhz ölkə rəhbərlərinin məqsədsiz siyasəti, xüsusən də işğalçılıq siyasəti nəticəsində qonşu ölkələr arasında təklənməsi ucbatından baş verib:"Əsas məsələ əhalinin xaricə axını və doğum sayının azalmasıdır. Ermənistanın cana doymuş xalqı nə edəcəklərini, ailəni layiqincə saxlamağa imkan olmadığı bir şəraitdə necə dolanacaqlarını bilmir. Gənclər bütün ümidlərini xaricə getməyə bağlayır. Sadə ermənilər artıq hər şeyi dərk edir, rəsmi mövqe ilə üst-üstə düşməyən nəticələr çıxarırlar. Onların qənaətincə, yoxsulluq və səfalətin tüğyan etdiyi Ermənistanda uşaq sahibi olmaqdansa, baş götürüb xaricə getmək məsləhətdir". O, hazırkı demoqrafik böhranın ordunun döyüş qabiliyyətinə də təsir göstərməsinin labüd olduğunu deyib: "Dağlıq Qarabağ münaqişəsinin başlamasından sonra artıq bütöv bir nəsil dəyişib. Bugünkü nəslin əvvəlkilər qədər sağlam olmaması üzündən bir sıra döyüş tapşırıqlarını yerinə yetirmək iqtidarında olmamasına görə erməni əsgərlərinin döyüş hazırlığında kəskin geriləmə göz qabağındadır. Bunun səbəbi də iqtisadiyyatın acınacaqlı vəziyyəti üzündən güzəranı təmin edəcək qazanc mənbələrinin olmaması nəticəsində bir çox valideynin övladlarını lazımınca qidalandırmamasıdır. Üstəlik, Nikol Paşinyan iqtidarı problemləri həll etmək iqtidarında da deyil".

Hazırda Ermənistan ekspertləri də həyəcan təbili çalaraq, ölkədəki demoqrafik vəziyyəti müəyyənləşdirən üç başlıca amil olan doğum, yaşlanma, əhalinin miqrasiyası ilə bağlı işlərin ürəkaçan olmadığını bildirirlər. Belə ki, Ermənistan Statistika Komitəsinin məlumatına görə, əhali sayının getdikcə azaldığı ölkədə doğum səviyyəsinin də azalma meyli davam edir. Yerli mütəxəssislərin fikrincə, mövcud sosial-iqtisadi şəraitdə gənclərin böyük əksəriyyəti ailə qurmaqda çətinlik çəkir, quranlar belə sosial çətinliklər üzündən övlad sahibi olmaq istəmir. Doğum səviyyəsinin azalması ilə yanaşı, əhalinin xaricə axını da davam edir. Yuxarıda qeyd olunduğu kimi, koronavirus təhdidi də məsələni bir qədər tətikləyir. BMT Əhali Fondunun Ermənistandakı icraçı nümayəndəsi Tsovinar Harutyunyan ölkənin demoqrafik böhrana qədəm qoyduğunu, artıq ölüm sayının doğum sayını üstələməsi səbəbindən əhalinin azalma həddinə yaxın olduğunu açıqlayıb. O vurğulayır ki, Ermənistanda demoqrafik vəziyyət sabit deyil: "Hətta həyəcan təbili çalmağın zamanı çoxdvn yetişib. Ölkə əhalisi son 10 ildə sürətlə azalmağa doğru gedir. Bunun bir səbəbi doğum sayının aşağı düşməsidirsə, digər səbəbi miqrasiya və əhalinin qocalmasıdır. İş qabiliyyətli əhalinin təqaüdçülərə nisbəti də təhlükəli həddədir. Ölkədə miqrasiyanın mənfi saldosu yenə yüksəkdir. Əhalinin xaricə axınının qarşısı alınmasa, bu, ciddi fəsadlarla nəticələnəcək. Bu fəsadlar bir çox istiqamətlərdə, məsələn, əmək qabiliyyətli insanların sayının daha çox azalmasında, ordunun əsgərlə təminatında və başqa istiqamətlərdə özünü göstərəcək". Məsələ iə bağlı "1in.am" saytı yazır ki, Ermənistanda demoqrafik problemin ciddiliyi hakimiyyət tərəfindən hələ də lazımınca qiymətləndirilmir: "Amma əbəs yerə. Məsələ burasındadır ki, BMT araşdırmalarına görə, 2025-ci ildə Ermənistanda böyük depopulyasiya gözlənir, yəni ermənilərin ölümü doğum nisbətini üstələyəcək. Əslində isə ölkədə bu prosesin başladığını demək olar. Maraqlıdır ki, prosesin qarşısını almaq üçün hansı vasitədən istifadə edilməlidir. "Ölkədə yeni bir inqilab edilməlidirmi "- deyə sual yaranır. Axı ermənilərin ölkədən köç etmələri bu gün də göz önündədir. Məsələ təkcə ermənilərin ölkəni tərk edib getmələri ilə bağlı deyil. Gələcəyini öz ölkələri ilə əlaqələndirməyən, ümidsiz qalanlar üçün doğum nisbəti davamlı olaraq azalmaqdadır. Ölkədə baş verən "məxməri inqilab"dan sonra vəziyyət yaxşılığa doğru bir qədər dəyişsə də, sən demə, bunlar da ötəri imiş. Qeyd edilməlidir ki, həmin ərəfədə erməni cəmiyyətində, eləcə də diaspor dairələrində Ermənistana gəlmək ümidi, istəyi var idi. Ancaq demoqrafik problemi həll etmək üçün yalnız ümid və arzu kifayət deyil. Bunun üçün konkret mexanizmlər lazımdır. Bunlar isə yoxdur. Üstəlik, ölkədə yenə köç dalğasının ola biləcəyinə dair xəbərdarlıqlar səngimir. Bu sahədə ən fəlakətli durum regionda məhz Ermənistandadır. Bütün bunlar həm də ölkənin təhlükəsizliyi ilə birbaşa bağlıdır. Məsələn, demoqrafiya problemi dərinləşsə, bu durumda da Azərbaycan müharibəyə başlasa, Ermənistanı ciddi problemlər gözləyir. Çünki nəzərə almaq lazımdır ki, ilk növbədə ordu və demoqrafiya amili burada özünü qabarıq göstərir. Hakimiyyət problemi həll edə bilmir. İnqilab edən və demək olar ki, baş nazir Nikol Paşinyanın hər gün inkişafdan danışdığı Ermənistandan vətəndaşlar niyə qaçır və başqa ölkələrin vətəndaşlığını almağa çalışırlar? Demokratiya və insan haqlarının "qorunduğu" deyilən, hakimiyyətin "iqtisadi artım"dan danışdığı ölkənin vətəndaşlarını buna nə məcbur edir? İnsan haqlarının qorunmasının fundamental prinsiplərindən biri sosial müdafiədir. Bu gün Ermənistanın ən böyük problemi məhz budur: dağılmış iqtisadiyyat, kosmetik inkişaf və acların qaçışı. İndi ermənilərin ölkədən qaçması Ermənistanın bir dövlət kimi mövcudluğunu təhlükə altına qoyub. Bütün bunlar Ermənistanın sonunu yaxınlaşdırır. Təbii ki, əhalinin, xüsusən də gənclərin sayının azalması təhlükəsizliyə də birbaşa təsir edir. Faktdır ki, ordunun şəxsi heyətlə təmini problemi ciddiləşir. Onda sabah Qarabağ müharibəsi yenidən başlasa, bizi nə gözləyir? Vəziyyət faciəvidir və hakimiyyət bundan, görünür, hələ də lazımi nəticə çıxara bilmir".

Bu durumda daha bir problem şəxsi heyət sarıdan əziyyət çəkən orduda digər istiqamətlərdə də problemin miqyasının artmasıdır. Məsələn, elə bu günlərdə işğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bir hərbi hissəsində yoxlama zamanı dəhşətli faktlar üzə çıxıb. İşğalçı ordunun hərbi hissəsində yoxlama zamanı məlum olub ki, döyüş postlarında müşahidə cihazları yararsız, nasaz vəziyyətdədir, silah-sursatların saxlanmasında xeyli ciddi nöqsanlar mövcuddur. Eyni zamanda, yoxlama zamanı döyüş sursatlarının oğurluq faktları da aşkar edilib. Həmçinin aparılan yoxlama zamanı bölmələrdə əsgərlərdən çoxlu sayda mobil telefon müsadirə olunub. O da qeyd edilir ki, mobil telefonların əsgərlərdən müsadirə olunması prosesindən yararlanan zabitlər bu işdən gəlirli biznes qurmağa başlayıblar. Belə ki, əsgərlərdən telefonlar müsadirə edildikdən sonra komandirlər öz telefonlarından yaxşı pul müqabilində əsgərlərə valideynləri ilə danışmağa şərait yaradırlar. Erməni hüquq müdafiəçisi Larisa Alaverdyan da belə halların kütləvi şəkil aldığını təsdiq edir: "Ordu çox incə orqanizimdir və hərbçilər arasında şəxslərarası münasibətlərdə kök salmış qanundankənar hərəkətlər silahlı qüvvələrin yaxşılaşmasına xidmət edə bilməz. Ermənistan hakimiyyəti silahlı qüvvələrdə yaranmış qanunsuz əməllərə qarşı ciddi iş aparmalıdır. Əks halda, ordu daxildən böhranlı vəziyyətə düşə bilər. Əslində, bu böhran mövcuddur. Erməni silahlı qüvvələrinin zəifləməsi həm də ordu daxilindəki qanunsuzluqlar və psixi böhranın məntiqi nəticəsidir". Məhz bu vəziyyətdə Qarabağ savaşının yenilənməsi halında erməni tərəfini böyük zərbələr gözləməsi düşmən ölkənin özündə də açıq şəkildə vurğulanır. Aydındır ki, danışıqlar vasitəsilə erməni tərəfi konfliktin çözümü istiqamətində müvafiq addımlar atmasa, savaşın başlanması qaçılmaz olacaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# COVİDA nədir, niyə 19, bu adı kim və nə vaxt verib...

***Adil Qeybulla:* ”COVİD-19” Ümumdünya Səhiyyə Təşkilatının qoyduğu abreviaturadır”**

**2019-cu ilin dekabr ayında Çinin mərkəzi Hubey əyalətinin Uhan şəhərində başlayan və bu gün bütün dünyanı qorxu və əndişəyə salan, dünyanın siyasi-iqtisadi, sosial, demoqrafik mənzərəsini dəyişən "COVID-19" virusunun yayılması Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən pandemiya adlandırılıb.**

Son illərdə "COVID-19" virusuna qədər dünyada bir çox virus yayılıb və onların heç biri bu qədər dəhşətli fəsadlarla müşayiət olunmayıb. Hazırda bu virusdan dünyanın, demək olar ki, bütün ölkələri əziyyət çəkir və onlar bununla bağlı ciddi mübarizə tərbirləri həyata keçirirlər.

"COVID-19" koronavirus pandemiyası nədir və bu nə üçün "COVID-19" adlandırılır? İndiyə qədər bu virus elmə məlum olubmu?

Qeyd edək ki, "COVID-19" virusu ilə bağlı yayılan dəqiqləşdirilmiş məlumatların hamısında bildirilir ki, indiyə qədər belə bir virus elmə məlum olmayıb. Son illər dünyada yayılan "Quş qripi", "Donuz qripi", "SARS" və "MERS" virusları ilə onun fərqləri var.

"COVID-19", "2019-nCoV" koronavirusu pandemiyası müasir dünyada yeni tipli pnevmoniyadır.

Ekspertlər qeyd edirlər ki, "COVID-19", "2019-nCoV" koronavirusu pandemiyası 2019-cu ildə yayıldığı üçün o belə adlanır. "COVID-19" 2019-cu ilin dekabr ayının ortalarında, Çinin mərkəzi Hubey əyalətinin Uhan şəhərində yerli Huanan ət və dəniz məhsulları bazarı ilə əlaqəli yerli sakinlərdə naməlum mənşəli pnevmoniya xəstəliyinin ilk aşkar olunması ilə başlayıb. 31 dekabr 2019-cu ildə Çin hakimiyyəti naməlum pnevmoniyanın başlaması barədə Ümumdünya Səhiyyə Təşkilatına məlumat verib.

Sonradan Çin alimləri yeni koronavirus - "2019-nCoV" ayırd edərək onun genomunun genetik ardıcıllığını təyin ediblər. Virus kəskin tənəffüs sindromuna səbəb olan "SARS-CoV" virusuna (atipik pnevmoniya kimi də tanınır) ən azı 70% genetik ardıcıllıqla bənzəyir. Yeni koronavirusun inkubasiya dövrü 2 gündən 10 günə qədər davam edir və son məlumatlara görə, xəstəlik simptomları başlamazdan əvvəl yoluxucu olur.

22 yanvar tarixindən etibarən Uhana karantin qoyuldu. 24 yanvar tarixindən etibarən Uhana bitişik olan Huanqan, Eçjou, Çibi və Çjitsyan şəhər rayonlarına karantin tətbiq edilib. Ümumilikdə, 14 şəhərdən gediş məhduddur. Virus Çindəki bütün əyalət səviyyəsində inzibati vahidlərdə qeydə alınıb.

Yanvarın 30-da ÜST-in Fövqəladə Komitəsinin iclasında yeni koronavirusun yayılması beynəlxalq narahatlıq yaradan ictimai səhiyyə təcili vəziyyəti kimi qəbul edildi. Martın 18-nə olan məlumata görə, dünyada koronavirus infeksiyasına indiyədək yoluxanların sayı 203,000-ə çatıb. Bunların 82000 nəfəri sağalıb, 8,200 nəfəri isə ölüb. Ümumdünya Səhiyyə Təşkilatı fevralın 11-də infeksiyanın adını "COVID-19" qoyub, martın 11-də isə koronavirusun yayılmasını pandemiya elan edib.

12 yanvar - 29 fevral tarixləri arasında "2019-nCoV" koronavirusunun yayılması statistikasını təhlil edən mütəxəssislər qeyd edirlər ki, bu virus ölümcül olsa da, ona yoluxmuş əksəriyyətdə yalnız yumşaq simptomlar müşahidə olunur və bu şəxslər xəstəlikdən tam sağalırlar. Yoluxmaların 80 faizində simptomlar zəif olur. Çində fevralın 11-dək qeydə alınmış 44672 yoluxmanın 36 minindən çoxunda, yəni 80 faizində xəstəlik yüngül keçib. Xəstəliyin şiddətinə görə daha iki qrup var: sərt və kritik. İndiyədək bu virusa yoluxanların 14 faizində simptomlar sərt və yalnız 5 faizində kritik olub. Xəstəliyin orta ölümcüllük faizi Çində 2,3 faizdir. Alimlərin fikrincə, Çinin Hubey vilayətindəki 2,9 faiz ölümcüllük göstəricisi şişirdilib. Çinin qalan hissələrində yoluxanların 0,4 faizi vəfat edib. Müqayisə üçün qeyd olunur ki, mövsümi qripin ölümcüllüyü 0,1 faizdir. Kritik kateqoriyaya düşənlər daha böyük təhlükə ilə üzləşirlər. Çindəki müşahidələrə görə, bu kateqoriyada olanların 49 faizi vəfat edib. Martın 13-də ÜST Avropa qitəsinin koronavirus pandemiyasının episentrinə çevrildiyini bəyan edib.

> ”COVİD-19” sözünü bizim dilə çevirəndə isə o ”Koronavirus yoluxucu xəstəliyi - 2019” kimi anlaşılır”

Virusun siyasi tərəfləri də bu gün ciddi təhlil edilir. Qənaətlərə görə, Çin Kommunist Partiyasının (ÇKP) mərkəzi Çindəki bölgə icra hakimiyyətlərinin bir sıra nümayəndələri vəzifələrindən azad edilib. Bəzilərinin fikrinə görə, bunun məqsədi ÇKP-nin başçılığını ictimai qəzəbdən qorumaq idi.

İranın hakimiyyəti epidemiyanın təsirinə ağır şəkildə məruz qalıb. İran Prezidenti Həsən Ruhani dünya liderlərinə ünvanladığı məktubda yardım istəyib, ölkəsinin ABŞ sanksiyalarına görə dünya bazarlarına girişi olmadığını qeyd etmişdi.

Bəzləri Avropa İttifaqını İtaliyadakı epidemiya ilə əlaqədar həmrəysizliyinə görə tənqid edib.

Məlumatlara görə, virusun yayılması ilə çinlilərə və başqa Şərqi Asiya əsilli insanlara qərəz və ksenofobiya bir sıra ölkələrdə, xüsusən də Avropada, Şimali Amerikada və Asiya-Sakit okeanı bölgəsində artıb.





”Bu yeni yoluxucu xəstəlik 2019-cu ildə yayılmağa başladığı üçün ona ”COVİD-19” adı verilib, sözün əsli ingiliscədir”

Biz bu fikirləri qeyd etməklə virusun yayıldığı ilk dövr haqqında məsələləri çatdırdıq.

İndi isə bu yeni virusun adının mənşəyinə diqqət yetirək.

Tanınmış tibb mütəxəssisi, professor Adil Qeybulla "Bakı-Xəbər"ə bildirdi ki, bu virus dünya üçün yenidir və 2019-cu ildə yayıldığı üçün ona "COVID-2019" adı verilib. "COVID" sözünün mənşəyinə gəlincə, A.Qeybulla qeyd etdi ki, söz ingilis mənşəlidir və o, sözün mənasını belə izah etdi: "C O V I D - 1 9 " Ümumdünya Səhiyyə Təşkilatının qoyduğu abreviaturadır. Əvvəllər bu yeni virusun adını ÜST "Nobel-2019" koronavirus qoymuşdu, sonra isə dəyişib "COVID-19" qoydular. "COVID" sözünün etimologiyasına gəlincə, co-korona, v-virus, i-infeksis, d-dizis (Koronavirus infeksis dizis-19" - "Koronavirus yoluxucu xəstəliyi-2019"). Sözün mənası belədir. Bunun 3 forması var: "SARS" (severe acute respiratory syndrome), "MERS" (Middle East respiratory syndrome), "COVID-19"( COrona VIrus Disease 2019) . "COVID-19" sözünü bizim dilə çevirəndə isə o "Koronavirus yoluxucu xəstəliyi-2019" kimi anlaşılır. Yəni bu yeni yoluxucu xəstəlik 2019-cu ildə yayılmağa başladığı üçün ona "COVID-19" adı verilib, sözün əsli ingiliscədir".

***İradə SARIYEVA***

**Məlum olduğu kimi, koronavirus təhlükəsi bütün dünyanı ağuşuna alıb. Dünyanın əksər ölkəsi sözügedən virusla mübarizədə müxtəlif tədbirlər görür. O cümlədən, Azərbaycanda da koronavirusun yarada biləcəyi təhlükəli fəsadları önləmək, neytrallaşdırmaq üçün bir sıra addımlar atılır.**

# Özəl tibb müəssisələri koronavirusla mübarizədə dövlət tədbirlərinə dəstək vermədi...

### *Rəsul Cahangirli: "Özəl klinikaların koronavirusla bağlı göstərdiyi bu biganəliyə qarşı ciddi ictimai qınaq olmalı və media buna geniş yer verməlidir"*



### *"Çünki onların bu biganəliyi qəbuledilməzdir"*

Giriş-çıxış məhdudlaşdırılır, nəzarət artırılır, ictimai yerlərdə və əhalinin çox istifadə etdiyi obyektlərdə dezinfeksiya işləri aparılır və s.

Adətən, bir sıra sivil dövlətlərdə bu kimi təhlükələrin qarşısının alınması üçün bütün tərəflər səfərbər olur. Yəni təkcə dövlət bunun yükünü öz üzərinə götürmür. Müxtəlif özəl qurumlar, xüsusən də tibb sektoruna aid olan təsisatlar ümumi işə öz faydalarını verir. Ancaq müşahidələr göstərir ki, fevral ayından Azərbaycanda koronavirusla bağlı dövlət tərəfindən görülən bir sıra profilaktik və digər tədbirlərə baxmayaraq, özəl klinikalar bu işə heç bir yardım göstərmirlər. Özəl qurum olmaq o demək deyil ki, bütün bu prosesdən özünü kənarda saxlayasan. Ancaq Azərbaycandakı özəl klinikalar əvvəlki iş rejimində işləyirlər. Daha dəqiq desək, əvvəlki kimi şıdırğı pul qazanmaqla məşğuldurlar. Bakıda fəaliyyət göstərən özəl klinikalardan heç biri indiyə qədər koronavirusla mübarizə ilə bağlı hansısa təşəbbüslə çıxış etməyib. Hansısa aztəminatlı sosial qrupa aid olan vətəndaşların yoxlanılması, karantin işləri aparılması ilə bağlı aksiya keçirməyiblər. Bir sözlə, bu işlə yaxından-uzaqdan heç maraqlanmırlar. Əslində, bu kimi məsələlərdə özəl klinikalar sosial məsuliyyət prinsipindən çıxış etməyə borcludurlar. Ancaq bizdə özəl klinikalar, ümumiyyətlə, belə məsələləri görməzdən gəlirlər. Sanki koronovirusla ancaq dövlət xəstəxanaları məşğul olmalıdırlar. Özəl klinikalar isə yalnız pul qazanmalıdırlar.

Onu da qeyd edək ki, Azərbaycanda fəaliyyət göstərən özəl klinikaların həm maddi, həm də texniki imkanları kifayət qədər böyükdür. Buna baxmayaraq, yaranan belə çətin vəziyyətdə heç bir klinika əhaliyə göstərilən xidmətdə endirimlərə getmir, hansısa sosial paketlə çıxış etmir. İşləri ancaq vəziyyətin nə cür olmasından asılı olmayaraq pul qazanmaqdır. Bütün bunlar onu göstərir ki, özəl klinikalar sosial məsuliyyət məfhumundan tamamilə uzaqdırlar. Bu da ikrah doğuran haldır.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, Azərbaycanda fəaliyyət göstərən özəl klinikaların iş prinsipi ancaq böyük həcmdə pul qazanmaqdır: "Bu dünən də belə idi, bu gün də belədir. Təəssüflər olsun ki, uzun illərdir özəl klinikaların bu "yanaşması" dəyişmir. Nadir hallarda hansısa pulsuz aksiya keçirirlər. Ancaq sonra məlum olur ki, bunu özlərini reklam etməkdən ötrü ediblər. Məqsəd bu minvalla daha çox müştəri cəlb edib pul qazanmaqdır. Koronavirusla mübarizə məsələsində həqiqətən də özəl klinikalar özlərini biganə aparırlar. Bu da cəmiyyətdə narazılıqla qarşılanır. Hansı ki, özəl klinikaların bu kimi məsələlərdə imkanları dövlət xəstəxanaları ilə müqayisədə daha böyükdür. Ancaq sözügedən klinikalar, ümumiyyətlə, bu işdə özlərini kənarda saxlayırlar. Hesab edirəm ki, bu qəbuledilməzdir. Düzdür, özəl klinikaların fəaliyyətinə birbaşa müdaxilə etmək olmaz. Ancaq hesab edirəm ki, özəl klinikaların koronavirusla bağlı göstərdiyi bu biganəliyə qarşı ciddi ictimai qınaq olmalı və media buna geniş yer verməlidir". Çünki onların bu biganəliyi qəbuledilməzdir".

***Vidadi ORDAHALLI***

---

**Məlum olduğu kimi, koronavirusla mübarizədə Azərbaycanda təxirəsalınmaz tədbirlər görülür. Dövlət orqanlarının fəaliyyətini əlaqələndirən Nazirlər Kabineti yanında Operativ qərargahın yaradılması, bəzi ölkələrlə sərhədlərin bağlanması və gediş-gəliş təmaslarının məhdudlaşdırılması, karantin rejiminin tətbiqi qarşıya qoyulan vəzifələri maksimum icra etməyə imkan verib.**

# Koronavirusla ümumi mübarizə tədbirlərinin Azərbaycanda daha bir nəticəsi - ekologiya və atmosfer təmizlənir, gigiyenik vəziyyət yaxşılaşır...

### *Aydın Hüseynov: "Gediş-gəliş azalır və nəticədə ətraf mühitə atılan tullantıların miqdarı da azalır"*



Bir ay müddətində kütləvi tədbirlərin, toyların təxirə salınması, dövlət və özəl sektora aid qurumlar, vətəndaşlar üçün xüsusi qaydaların elan olunması, onlara ciddi riayət edilməsi üçün nəzarət mexanizminin formalaşdırılması və tətbiqi qərara alınıb. Azərbaycan hökuməti Dünya Səhiyyə Təşkilatının tövsiyələrini və beynəlxalq təcrübəni nəzərə alaraq, əhalinin sağlamlığının etibarlı qorunması və virusun yayılmasının qarşısının alınması üçün həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirib.

Bununla belə, koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə respublikanın şəhər və rayonlarında qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna buraxılması martın 29-dək dayandırılıb. Bütün bunlarla yanaşı, koronavirusla ümumi mübarizə tədbirləri ekologiyaya, atmosferə və ümumi gigiyenik vəziyyətə necə təsir göstərir?

### *"İnsanlar gigiyena qaydalarına daha ciddi riayət edirlər"*

Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, bu kimi məhdudlaşdırıcı tədbirlərin ətraf mühitə faydası var: "Bu məhdudiyyətlərin müəyyən fəsadları, gərginlikləri ilə yanaşı, faydaları da var. Görülən tədbirlər nəticəsində gediş-gəliş azalır. Nəticədə ətraf mühitə atılan tullantıların miqdarı azalır. Məsələn, atmosferi ən çox çirkləndirən vasitələrdən biri də avtomobillərdir. Məlum vəziyyətlə əlaqədar avtomobillərin hərəkəti xeyli azalıb. Bu da, öz növbəsində, atmosferin çirklənməsinin azalmasına öz müsbət təsirini göstərir. Bununla belə, sözügedən proseslər ətrafa digər tullantıların atılmasının miqyasını azaldır. O baxımdan bunların hamısı bir-birilə sıx bağlıdır. Görülən bu kimi məhdudlaşdırıcı tədbirlərə ancaq ziyanlı tərəfdən yanaşmaq doğru deyil. Bunun faydalı tərəfləri də var. İnsanlar gigiyena qaydalarına daha ciddi riayət edirlər. Bir növ, bununla bağlı vərdişlər yaranır. Təmizliyə daha ciddi riayət edilir, xüsusən də ictimai yerlərdə. Ona görə də məsələnin bu tərəfinə də diqqət edilməlidir".

***Vidadi ORDAHALLI***

**Koronavirusla bağlı narahatlıqlar bütün dünyada hökm sürməkdədir. Virusla bağlı ayrı-ayrı ölkələrdə fövqəladə tədbirlər həyata keçirilir. Hətta dünyanın inkişaf etmiş ölkələri belə virusun qarşısını ala bilmirlər. Lakin səmərəli qabaqlayıcı tədbirlər görən ölkələrdə vəziyyət nisbətən daha qənaətbəxşdir.**

*"İnsanların alış-veriş zamanı nağd deyil, kartla ödənişlərə üstünlük verməsi daha məqsədəuyğundur"*

# Virus təhlükəsi dövründə nağdsız ödənişlərə daha geniş imkanlar açılır

***Yazgül Abdiyeva:** "Dünyanı başına alan koronavirusdan qorunmaq bir çox halda özümüzdən asılıdır"*



Ölkəmiz də, öz növbəsində, bütün qabaqlayıcı və operativ tədbirləri həyata keçirir. Bu baxımdan Azərbaycan hətta bir çox ölkəni qabaqlayır.

Koronavirusun ölkəmizdə də yayılmaması üçün nağdsız ödənişlərə üstünlük verilməsi təklif olunur. Azərbaycan Banklar Assosiasiyası nağdsız ödənişlərin "COVID-19" virusu ilə yoluxma təhlükəsini azaltmasına dair əhaliyə məsləhətlər verib. Azərbaycan Banklar Assosiasiyası nağd puldan istifadəni minimallaşdırmaq üçün kütləvi xarakter daşıyan xidmətlər, xüsusilə də kredit, kommunal, mobil telefon və digər ödənişlərin internet üzərindən və ya bankların təqdim etdiyi mobil və internet bankçılıq xidmətləri vasitəsilə nağdsız formada həyata keçirilməsinə üstünlük verilməsini də tövsiyə edir: "Hazırda qlobal səviyyədə narahatlığa səbəb olmuş və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən pandemiya elan edilmiş "COVID-19" virusu onun təmas etdiyi səthlərə toxunulma vasitəsilə də yoluxmaya səbəb ola bilir. Bu səbəbdən, xüsusilə də insanların çox toplaşdığı ərazilərdə quraşdırılmış bankomatlardan istifadə etməklə nağdlaşdırma əməliyyatı aparılan zaman bankomatın düymələrinə toxunmaq zərurəti yarandığı üçün, hər istifadədən sonra əllər ciddi şəkildə yuyulmalı və ümumiyyətlə, zərurət olmadıqda bankomatdan istifadə minimuma endirilməlidir".

Aparılan araşdırmalara görə, bu kimi viruslar kağız əskinaslarla daha çox sürətlə yayılır. Bu səbəbdən də ödənişin nağdsız formada həyata keçirməsi məqsədəuyğundur.

Onu da qeyd edək ki, Mərkəzi Bank nağd pulla bağlı əhaliyə müraciət edib. Müraciətdə bildirilir: "Bank sistemindən kənarda əhəmiyyətli həcmdə nağd pul kütləsi dövr etdiyi üçün bu pul nişanları da koronavirus infeksiyası baxımından potensial risq mənbəyi ola bilər. Bununla əlaqədar infeksiyaya yoluxma risqlərinin minimallaşdırılması məqsədilə Mərkəzi Bank əhaliyə, eləcə də biznes subyektlərinə nağd puldan istifadəni maksimal məhdudlaşdırmağı və nağdsız ödənişlərə (elektron və mobil bankçılıq, ödəniş kartları, o cümlədən, təmassız ödəniş alətləri vasitəsilə) böyük üstünlük verilməlidir".

"Sağlamlığın Qorunması" İctimai Birliyinin sədri Yazgül Abdiyeva bildirdi ki, dünyanı başına alan koronavirusdan qorunmaq bir çox halda özümüzdən asılıdır: "Ölkəmizdə bu bəlaya qarşı mübarizənin ciddiliyini nəzərə alaraq, bacardığımız qədər ictimai yerlərə getməyərək evdə qalın. İnsanlar dükan-bazara getdikdə də özlərini maska ilə qorusunlar. Bununla yanaşı, virusdan qorunmaq üçün insanların alış-veriş zamanı nağd deyil, kartla ödənişlərə üstünlük verməsi daha məqsədəuyğundur. Onlayn alış-verişə üstünlük verilərsə, virusdan qorunmaq olar. Bu hal həm də ölkədə nağdsız ödənişlərin artmasına səbəb olacaq".

***Günel CƏLİLOVA***

**Hazırda qlobal səviyyədə narahatlığa səbəb olmuş və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən pandemiya elan edilmiş "COVID-19" virusu onun təmas etdiyi səthlərə toxunulma vasitəsilə də yoluxmaya səbəb ola bilir. Bu barədə nağdsız ödənişlərin "COVID-19" virusu ilə yoluxma təhlükəsini azaltmasına dair Azərbaycan Banklar Assosiasiyasının tövsiyələrində qeyd olunub.**

# Bankomatlarla intensiv ünsiyyət niyə təhlükəli sayılır...

***Rasif Bağırov:** "Vətəndaş bankomata kartını daxil edərkən həmin virusun karta düşməsi ehtimalı yüksəkdir"*



Assosiasiyadan verilən məlumata görə, xüsusilə də insanların çox toplaşdığı ərazilərdə quraşdırılmış bankomatlardan istifadə etməklə nağdlaşdırma əməliyyatı aparılan zaman bankomatın düymələrinə toxunmaq zərurəti yarandığı üçün hər istifadədən sonra əllərin ciddi şəkildə yuyulması və ümumiyyətlə, zərurət olmadıqda bankomatdan istifadənin minimuma endirilməsi tövsiyə edilir. Həmçinin, ÜST-in araşdırmalarına əsasən, bu kimi virusların kağız əskinaslarla yayılmasının mümkünlüyünü nəzərə alaraq, ödəniş kartı istifadəçilərinin ticarət və digər obyektlərdə ödənişlərini POS-terminallar vasitəsilə nağdsız formada həyata keçirməsi məqsədəuyğundur.

Azərbaycan Banklar Assosiasiyası nağd puldan istifadəni minimallaşdırmaq üçün kütləvi xarakter daşıyan xidmətlər, xüsusilə də kredit, kommunal, mobil telefon və digər ödənişlərin internet üzərindən və ya bankların təqdim etdiyi mobil və internet bankçılıq xidmətləri vasitəsilə nağdsız formada həyata keçirilməsinə üstünlük verilməsini tövsiyə edir.

Maraqlıdır, bəs ekspertlər bankomatlarla təmasın təhlükəli olmasını nə ilə əlaqələndirirlər? Bunun təhlükəli tərəfləri nədən ibarətdir?

Məsələyə münasibət bildirən tanınmış həkim Rasif Bağırovun sözlərinə görə, bu kimi virusların bankomatlarla təmas zamanı yoluxma risqi var: "Ona görə də vətəndaşların buna ciddi yanaşması məsləhətdir. Məsələ ondadır ki, müxtəlif insanlar gəlib eyni bankomata kartını daxil edib oradan pul çıxarırlar. Ola bilsin ki, kimsə koronavirus daşıyıcısıdır və həmin virus kart vasitəsilə bankomata düşür. Digər bir vətəndaş bankomata kartını daxil edərkən həmin virusun karta düşməsi ehtimalı yüksəkdir. Bu zaman həmin vətəndaş virusa yoluxa bilər. Nəticədə virusun yayılma risqi daha da böyüyür. O nöqteyi-nəzərdən mümkün olan qədər bankomatlarla az təmas qurulması məsləhətdir. Kartın materialı elədir ki, orada virus qalır. Karta insan əli dəyir. Daha sonra insan əlini burnuna, gözünə və ümumiyyətlə, üzünə vuranda virus bədənə keçir.

*"Kartın materialı elədir ki, orada virus qalır"*

Başqa bir tərəfdən, virus daşıyıcısı bankomatın düymələrinə toxunarkən belə bir risq yaranır. Nəzərə almaq lazımdır ki, minlərlə insan bankomatlardan istifadə edir. Xüsusən də pensiya və maaşlar hesaba köçürüldükdən sonra bankomatlarla təmas daha da intensivləşir. Ona görə də əhali bu tövsiyələrə son dərəcə diqqətlə yanaşmalıdır. Hansısa bir ehtiyatsızlıq insanın virusa yoluxmasına səbəb ola bilər".

***Vidadi ORDAHALLI***

# İnformasiyaların yayılması üzərində daha sistemli nəzarət və Azərbaycanda koronavirus təhlükəsi ilə mübarizənin səmərəsi...

**Məlum olduğu kimi, ölkə parlamenti "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanuna dəyişiklik edib. Dəyişikliyə əsasən, informasiya internet-resursunun sahibi bu resursda insanların həyat və sağlamlığına ziyan vurulmasına, əhəmiyyətli əmlak ziyanının törədilməsinə, ictimai təhlükəsizliyin kütləvi surətdə pozulmasına, həyat təminatı obyektlərinin, maliyyə, nəqliyyat, rabitə, sənaye, energetika və sosial infrastruktur obyektlərinin fəaliyyətinin pozulmasına və başqa ictimai təhlükəli nəticələrin baş verməsinə təhdid yaradan yalan məlumatlar yerləşdirilməsinə yol verməməlidir.**

*Azər Həsrət: "Belə dəyişikliklər edilir ki, ciddi mövzu ilə bağlı yayılan informasiyalarda məsuliyyət hissi artsın və müəyyənləşsin"*

Bu əlavələr müzakirələrdən və parlament üzvlərinin səsverməsindən sonra qəbul edilib. Amma bu mətndə zərərli məlumat deyildikdə konkret olaraq nəyin nəzərdə tutulduğu aydın deyil.

Layihəni təqdim edən İnsan hüquqları komitəsinin sədri Zahid Oruc "İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində informasiyanın yayılması"na dair 13-2-ci maddədə edilən dəyişiklikləri və "İnternet informasiya ehtiyatında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi ilə əlaqədar məsuliyyət"i tənzimləyən 13-4-cü maddədə edilən dəyişikliyi ətraflı şərh edib. İclasda bildirilib ki, müasir dövrdə informasiyanın cəmiyyətdəki rolu danılmazdır. Ona görə də məlumatların yayılmasının qarşısının alınması vacibdir. Müzakirədən sonra dəyişiklik qəbul edilib.

İnformasiyaların yayılması üzərində daha sistemli nəzarət Azərbaycanda koronavirus təhlükəsi ilə mübarizədə hansı səmərəni verəcək?

Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, indiki məqamda informasiya ilə ciddi manipulyasiyalar edilir: "Bunların qarşısını mütləq almaq lazımdır ki, kimlərsə əhalini təhdid altında saxlaya bilməsin. Hiss olunur ki, bəzi dairələr informasiya vasitəsilə insanları, cəmiyyətləri qorxu altında saxlamağı hədəfləyirlər. Düşünürəm ki, parlament tərəfindən qanunlarımızın bu yöndə uyğunlaşdırılması yerinə düşdü. Bu, ən əsası, insanların məsuliyyət hissini artırmış olur. Dəyişikliyi doğru və vaxtında atılmış addım kimi dəyərləndirirəm".




"Bəzi dairələr bu yeniliyi media azadlığının məhdudlaşdırılması kimi qələmə verməyə çalışır, bunu doğru saymaq olarmı" sualına isə ekspertin cavabı belə oldu: "Azərbaycan dövlətinin belə bir istəyi heç vaxt olmayıb. Ümumiyyətlə, bizim qanunvericilikdə fövqəladə vəziyyətdə, belə pandemiyada, müharibə zamanı informasiyanın yayımının bu və ya digər şəkildə məhdudlaşdırılması nəzərdə tutulur.

Bunların hamısı bizim sağlamlığımız üçün edilir. Azərbaycan hakimiyyətinin internet əsrində informasiyanı məhdudlaşdırmaq kimi bir istəyi yoxdur. Belə dəyişikliklərin edilməsi, ən əsası, insanlara məsuliyyəti dərk etdirmək üçün vacibdir. Bizim insanlarımız bəzən məsələyə lağlağı kimi yanaşırlar. Gülmək üçün xəstəliklə bağlı hansısa postu paylaşır. Belə dəyişikliklər edilir ki, ciddi mövzu ilə bağlı yayılan informasiyalarda məsuliyyət hissi artsın və müəyyənləşsin. Qətiyyən bu addımları senzura kimi qələmə vermək olmaz".

**Məhəmmədəli QƏRİBLİ**

# AMEA-da nə professor dərəcəsi... Alimlər arasında fəal reaksiyalar var

**Yayılan məlumatlara görə, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Ramiz Mehdiyevin müvafiq qərarı ilə "AMEA-nın professoru" adı ləğv edilib. Əvvəlcədən bildirək ki, indiyə qədər bu adı 50-dən yuxarı şəxs daşıyıb və onlar arasında tanınmış elm adamları ilə yanaşı, qeyri-elm adamları da olub.**



*Etibar Əliyev: "AMEA-nın professoru" adı lazım olmayan bir nüans idi"*

Onu da vurğulayaq ki, AMEA Rəyasət Heyətinin 10 dekabr 2019-cu ildə keçirilən iclasında bu məsələ gündəmə gətirilib və bu adın ləğv edilməsinin vacib olduğu vurğulanıb.

AMEA-nın akademik-katibi, AMEA-nın müxbir üzvü Əminağa Sadıqov çıxışında bildirmişdi ki, "AMEA-nın professoru" adının ləğv edilməsi labüddür. O qeyd etmişdi ki, "AMEA-nın professoru" adının təsis edilməsi və verilməsi elmi adların verilməsi haqqında müvafiq qanunvericiliyə uyğun olmadığı üçün, bu məsələyə yenidən baxılması zərurəti yaranıb.

Əldə etdiyimiz məlumata görə, elə həmin iclasda məsələ geniş müzakirə olunduqdan sonra Rəyasət Heyəti "AMEA-nın professoru" adının təsis edilməsi" haqqında AMEA Rəyasət Heyətinin 18 yanvar 2017-ci il tarixli, 1/2 nömrəli qərarının qüvvədən düşməsi və "AMEA-nın professoru" adının bir təsisat olaraq ləğv edilməsi haqqında müvafiq qərar qəbul edib.

Hadisədən bir neçə ay keçməsinə baxmayaraq, bu gün sosial şəbəkələrdə və KİV-də "AMEA-nın professoru" adının ləğv edilməsi ilə bağlı verilən müvafiq qərar barədə müzakirələr açılıb.

"AMEA-nın professoru" adının ləğv edilməsi nə dərəcədə düzgündür? AMEA rəhbərliyinin bu qərarına ekspertlərin münasibəti necədir?

Qeyd edək ki, "AMEA-nın professoru" adını daşımış olan elm adamları bu qərara qarşı çıxır və onların fikrincə, bu, düzgün qərar deyil. Amma onların narazılığının əsassız olduğunu və bunun AMEA tərəfindən verilmiş mənasız ad olduğunu deyənlər daha çoxdur.

*"Belə bir adın təsis edilməsi, müxtəlif şəxslərə, hətta elmlə heç bir əlaqəsi olmayanlara verilməsi..."*

Millət vəkili, tanınmış təhsil mütəxəssisi Etibar Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, AMEA rəhbərliyinin bu addımı müsbətdir. O hesab edir ki, "AMEA professoru" adının təsis edilməsi və onun elm adamları ilə yanaşı, elmlə heç bir əlaqəsi olmayan şəxslərə verilməsi özü düzgün deyildi. Bunun neqativliklərə və sui-istifadə hallarına yol açdığını deyən E.Əliyev bildirdi ki, "AMEA-nın professoru" deyiminin özü doğru deyil. E.Əliyevin sözlərinə görə, elm və pedaqoji sahədə elmi nailiyyətləri olan, dissertasiya işi müdafiə edən şəxslər elmi adlar ala bilər. "Bilirsiniz, "AMEA-nın professoru" adı təsis ediləndə mən buna narazılığımı bildirmişəm və bunun mənasız olduğunu qeyd etmişdim. Belə bir adın təsis edilməsi, müxtəlif şəxslərə, hətta elmlə heç bir əlaqəsi olmayanlara verilməsi özü düzgün deyildi. Bu səhv idi və bir sıra neqativ hallara yol açırdı. Mənim gəldiyim qənaət ondan ibarətdir ki, Akif Əlizadənin dövründə doktorantura şöbəsinin yaradılması tam lazımsız bir məsələ idi. "AMEA-nın professoru" adının verilməsi tam mənasız bir məsələ idi. Bu cür strukturlar yaratmaqla, əksinə, təkrarçılığa yol verilirdi. Bu da sui-istifadə hallarının artmasına gətirib çıxarırdı. "AMEA-nın professoru" adı lazım olmayan bir nüans idi. Hətta burada verilən şərtlər də çox absurddur. Mən hesab edirəm ki, akademiya rəhbərliyinin "AMEA-nın professoru" adının ləğv edilməsi ilə bağlı qəbul etdiyi qərar çox müsbət qərardır və bu lazım idi" - deyə E.Əliyev qeyd etdi.

**İradə SARIYEVA**

# İgid ömrü

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı-xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabı çapa hazırlayırıq. Kitab Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edir.**

**(Yeddinci yazı)**



***(Əvvəli ötən saylarımızda)***

- Bilirsiniz, yanvarın 12-si sonuncu vertolyot gəlib ərzaq gətirmişdi. O vertolyotla 300-ə qədər adamı çıxartdıq. Amma Xocalının ümumi əhalisi 3100 nəfərdən çox idi. Onun təxminən 2800-ü orda qalmışdı. Nəylə çıxara bilərdik bu qədər əhalini? Yanvarın sonunda Ağdamdan uçan vertolyotu Şuşanın yaxınlığında stinger raketi ilə vurdular. Ondan sonra daha vertolyotun gəlməyi mümkün olmadı. Fevralın 2-si Xocalının işığı kəsildi. Ərzağımız tükənməyə başladı. Dəmləməyə çay tapmırdıq, ot çayı dəmləyib içirdik. Qırılmayan bircə ümidimiz idi ki, biz nəyin bahasına olursa-olsun torpağımızı qoyub çıxmayacağıq. Sonu da bu...

### Füzuli qürur idi, vicdan idi, namus idi...

...Xocalının ən ağır günləri. Ağdamdan gizli meşə yolları, atla silah gətirmək gərək olur. Etibarlılıq... Füzuli yada düşür. Füzuli gedib gətirir də. Füzulinin gördüyü işi kimsə görə bilərdimi?!.. Sonuncu gedişi Əlif Hacıyev yalnız Füzuli ilə reallaşdırmağa razılıq verir. Baş tutmayan bu gediş həm də, artıq qeyd etdiyimiz kimi, xocalılıların harayına gedərək, yaralı vəziyyətdə "xocalılı"ya çevrilməyə məcbur olmuş Azərbaycanın Milli Qəhrəmanı Aqil Quliyevi atla Ağdama gətirməli imiş. Gözlər yenə Füzuliyə dikilir... Amma Xocalı qətliamı, günbəgün daralan halqa bu gedişi əngəlləyir. Aqilsə xocalılı Kamran kişinin evində yataqda uzanılı vəziyyətdə müalicə alırmış. Xocalıya bağlanan bu tale sonuncu gün də xocalıların yanında olur, Xocalı şəhidləri ilə bərabər haqqa qovuşur. Əgər hadisə bir neçə gün yubansaydı...

Nazim deyir Füzulidə bir qədər çekistlik də vardı. Ona Aqilin aparılmasını deyən kimi ölçüb-biçməyə başlayır və bu ölçü-biçi sırasında xəyanətlərin, satqınçılıqların nəzərə alınmasını da gözdən keçirir. Hər sözü hər kəsin yanında demək olmazdı. Hətta Xocalının özündə 11-12 nəfər erməniyə "donos" daşıyan var imiş. Ağdama mütəmadi təkbaşına gedən, bir neçə dəfə yolunu dəyişməyə məcbur olan qorxmaz oğul Füzuli bu "eybəcər əməlliləri" da nəzərə alırmış...

**- Nazim, təəssüf ki zəmanəmizdə, ətrafımızda da belələri çoxdu. Orda ölüm-itim ayağında olduğu kimi, burda hətta təqaüd yaşına çatıb, elin dili ilə desək "bir ayağı gorda olanlar"ın içərisində də bu tipli "xasiyyətlərini" tərgidə bilməyən nadürüstlər var. Bir şeyi soruşum: Xocalı gecəsində başqaları ilə bərabər onları, o nadürüstləri də qətlə yetirmədilər ermənilər?**

- Ölənləri də oldu. Amma gəlib arın-arsız yaşayanları da var.

**- Hələ bir artıb-çoxaldılar da yəqin...**

- Orası da var.

**- Mən elə bilirəm Füzulinin qatili ermənilərdən çox belələridir...**

- Əlbəttə. Birbaşa iştiraklarını deyə bilmərəm. Amma Füzuli kimi oğulların varlığı belələrinə maneə idi. Bilirsiniz niyə? Çünki Füzuli qürur idi, vicdan idi, namus idi, hər şey idi (ağlayır). Belə oğul yaşamalıydı. Təkcə fiziki mövcudluğuna görə yox. Həm də öyrətmək üçün, öyrənməyimiz üçün, örnək üçün. Fikir verirsinizmi, hətta onun ölümü də xalqı qarşısında örnək olmağını əngəlləyə bilmədi. Əksinə, bir qədər də ucaltdı Füzulini. Kaş ailəli olaydı, bir övladı qalaydı...

İgir ömrün daşıyıcısı Füzuli və ölüm...bu faktla hələ də barışa bilmir Nazim.

### Kimisi canını qurtarmaq istəyirmiş, Füzuli hamını...

**- Xocalıda doğulmusuz?**

- Yox? mən Həsənabadda doğulmuşam. Əslimiz Laçındandı.

**- Həsənabad erməni kəndi olub axı?**

- Bəli, bizimkilər az idi. Ona görə bizi çıxarıb gətirdilər Xocalıya.

**- Aydındı. Füzulini necə xatırlayırsınız?**

Bəhram Əhmədovla belə başlayır dialoqumuz. Füzulinin - Zaminin gənclik və ermənilərə qarşı törətdikləri bir sıra cavab xarakterli əməliyyatların şahidi və şəriklərindən biri ilə. Bəhram da son anda sağ qurtulanlardandı erməni gülləsindən. Xocalı qətliamı gecəsini nəzərdə tuturam. O gecə Füzulini görmək qismət olmayıb Bəhrama. Amma bu gecəyə qədər Bəhramı Füzuli ilə çox tellər bağlamışdı artıq. Onu dinləyək:

- Bir az uzaqdan qohumluğumuz çatır Füzuliyə anam tərəfdən. Amma yoldaşlığımız daha çox olub. Ermənilərin bizə qarşı təxribatları, hücumları başlayandan sonra Füzuli daim qisasçılıq hissi ilə alışıb-yanırdı. Elə həmişə "qaynayırdı" ki, gedək hardasa millətimizin hayıfını çıxaq, ermənilərin nəyinisə yandıraq, dağıdaq. Çünki ermənilər bizimkiləri daşa basırdılar Əsgərandan, Xankəndidən keçəndə. Biz də çalışırdıq ki, nə yollasa bunların əvəzini çıxaq. Bir gün Xankəndiyə benzin daşıyan qatarın qarşısını almaq üçün qərara gəldik ki, gedək dəmir yolunu partladaq. Üç nəfər getdik. Mən, rəhmətlik Füzuli, bir də Felmar Rzayev. Getdik yanğınsöndürən aparat götürdük. Aminalı doldurduq içərisinə, qatar gələndə partladı. Qatar Xocalıda qaçqınların yerləşdirildiyi hissədə dayandı. Camaat töküldü konistrlərlə başladılar benzini daşımağa. Hardasa 8 saata yaxın qatar hərəkət edə bilmədi. Nəhayət, rusların 366-cı alayının əsgərlərini tökdülər ora.

**- İstəyirəm sizdən Füzuli ilə bağlı daha çox bilgi alım. Aeroportun partladılması əməliyyatında siz də iştirak etmisiniz?**

- Xeyr, o zaman mən orda olmamışam. Bizim işimiz ordusuz, özbaşına əməliyyatlar hazırlayıb həyata keçirmək olurdu.

**- Lokal müharibəni siz aparırmışsınız...**

- (gülüşürük). Hə, demək olar ki, beləydi. Biz planlaşdırırdıq ki, ermənilərdən hayıf çıxmaq üçün haranı yandıraq, haranı dağıdaq?! Ermənilərin maşınlarını daşa, bəzən hətta gülləyə tuturduq. Gülləylə vurmaq işlərini əsasən gecələr yerinə yetirə bilirdik. Bax, belə-belə işlər idi bizim işimiz. Dəfələrlə güllə atmışıq, özü də vurmuşuq erməniləri, Allah haqqı. Gedib qaz idarəsini yandırmışdıq. Sonra bizim Xocalı ilə Həsənabadın arasında alma bağımız vardı. Orda çoxlu erməniyə qan uddurmuşuq Füzuli ilə. O bağ da qaldı erməniyə. Füzulidə mən qorxu hissinin olduğunu görmədim. Bu adamda nəyinsə qabağında, loru dildə desək, əyləci basmaq, arxaya çəkilmək kimi hisslər yox idi. Deyirdim ki, Zamin, əyil aşağı, vuracaqlar səni. Kimə deyirsən, Füzulini saxlamaq olardı?! Körpünü partladanda elə bil ki, mən Füzulini kəşf elədim. Ondan sonra dedim ki, hara gedəcəyiksə, bir yerdə gedək.

Fikir verirsinizmi, əziz oxucular! Müxtəlif yaş qruplarının təmsilçilərindən olan adamların, tanışların, dostların dilindən səslənən eyni əlamətlərə: etibarlılıq, qoçaqlıq, üstəgəl mərdlik, insanlıq... Bu adamda nə qədər fiziki və mənəvi keyfiyyətlər cəmlənmişdi?!.. Onun gecələr ermənilərə hansısa bir ziyanı vurmaq üçün Xankəndiyə qədər gedib çıxmasını, təkbaşına Ağdama silah, ərzaq aparmağa gedib-qayıtmasını Bəhram da söyləyir bizlərə.

- Ağdama gəldiyini yüz faiz bilirdik hamımız. Təkbaşına gecə ilə gəlib-qayıdırdı. Həsənabada gedib "kontor"u da birlikdə partlatmışdıq.

**- Bəhram, siz də özünümüdafiə batalyonuna qoşulmuşdunuz?**

- Bəli, qoşulmuşduq. Komandirimiz Azərbaycanın Milli Qəhrəmanı Tofiq Hüseynov idi.

**- Bu batalyon Xocalıda bir iş görə bilirdimi? Aldığımız məlumata görə, 58 nəfərlik batalyonun cəmi 11 silahı varmış...**

- Batalyon kəndin qarovulunu çəkməklə məşğul ola bilirdi ancaq. Ermənilər atdıqca biz də cavab atəşi açırdıq. Bircə ədəd qranatomyotumuz var idi.

Bəhram da Xocalıdan həmin gecə çıxanlardandı. Deyir həmin gecə Füzulini görə bilməyib. Əslində Xocalı hadisəsi zamanı kimisə görə bilmək yalnız təsadüf nəticəsində mümkün olarmış. Hamı pərən-pərən düşüb. Hərə bir tərəfə dağılışıb. Kimisi canını qurtarmaq istəyirmiş, kimisi də Füzuli kimi hamını...

### Bəhram: "Erməni Azərbaycan dilində çağırdi ki, bizimkilərdi, gəlin..."

Bəhram deyir 30 nəfər qız-gəlinin salamat gəlib Ağdama çıxmasının səbəbkarı o və yanındakı daha üç nəfər olub. Amma yanındakı üç nəfəri yolda ermənilər güllələyib. Onlardan bircə Bəhram yolu sona qədər gəlib çıxa bilib. Bunu Allahın lütfü kimi qəbul edən həmsöhbətim başına gələnlərin ən dəhşətli hissəsinin bir qismini də nəql edir:

**- Biz Qarqar çayını keçib Kətik yolu ilə gəldik.**

- Elə Kətik yolunda çox qırıblar da camaatı...

**- Hə, o yolda qırmışdılar camaatı.**

- Amma Naxçıvanik kəndinə çıxan yol bir qədər etibarlı olub camaat üçün deyəsən...

**- Demək olar ki, bir qədər.**

- Bu yolu gələnləri daha çox səhər açılanda, hava işıqlananda qırıblar. Qaraqaya deyilən yerdən adlayanda...

- Bilirsiniz, qabaqca keçənlər çatdırıb keçdilər yolu. Amma hava işıqlaşanda gəlib ora çatanları ermənilər qırmağa başladı, gülləbaran elədilər. Əsas da Naxçıvanikə gedən asfalt yolun üstündə qırdılar milləti. BMP-dən atəş açırdılar durmadan.

**- Cavab atəşi açmaqsa mümkünsüz...**

- Silah yox idi ümumiyyətlə. Bircə dənə qranatamyot var idi.

**- Füzulinin yaralanmasını görməmisiz?**

- Xeyr.

**- Heç Ağdam xəstəxanasında yaralı da görməmisiz?**

- Xeyr, xeyr görə bilməmişəm.

**- O, dörd-beş dəfə keçib-qayıdıbmış deyirlər...**

- Yüz faiz. Bu, Füzulidən gözlənilən idi. O, sonuncu xocalılını çıxarana qədər qayıdası bir igid idi.

**- Siz özünüz necə gəldiniz o yolu?**

- Sizə bir fraqment danışım həmin gecədən. Hardasa 70 nəfərə yaxın qadın, uşaq, qoca var idi bizimlə birgə. Bu insanlarla gizlənə-gizlənə həmin BMP-dən canımızı birtəhər qurtardıq. Gəldik nisbətən dərə kimi bir yerdə gizləndik. 30 nəfər bir yerdə, 15 nəfər bir ayrı yerdə, belə-belə gizləndik. Siz indi ermənilərin bicliyinə, əclaflığına fikir verin. Bir erməni çıxdı. Azərbaycan dilində çağırdı ki, ay camaat, bizimkilərdi, gəlin, gəlin. Arvad-uşaq qaçdı onlara tərəf. Qaçanda bir partiya camaata səsləndim ki, dayanın! Kim məni eşitdi qaldı, kim eşitmədi, getdi o tərəfə. Həyat yoldaşım da yanımdaydı. O da dedi gəl gedək, camaat hamısı gedir. Dedim yox, mənim bu işdən gözüm su içmir, onlar ermənilərdi. Yoldaşım da əl çəkmir ki, görmürsən ferma müdiri Baloğlan gedir, əhali də ona qoşulub gedir. Nə isə, qoymadım. Bu dəstə gedib yaxınlaşanda kolların dibindən ermənilər çıxdı, bu insanları verdilər güllənin ağzına. Sonra getməyənlər arxaya süründük, səngər kimi bir yer var idi, üstü kolluqla örtülmüşdü, yarpağı da yox idi, fevralacan tökülmüşdü yarpağı, əlqərəz, onun içərisində gizləndik. Hərəsinin də qucağında bir körpə uşaq var idi. Dedim səs eləməyin, uşaqları da ağlamağa qoymayın, sizi birtəhər çıxaracam Ağdama. Ermənilər yuxarıdakı bu adamları qırdıqdan sonra düşdülər aşağıda gizlənən bir xeyli adamı tutdular, onları girov apardılar. Bizim onlarla aramızdakı məsafə 25 metr olardı. Yəni bu qədər yaxındaydıq ki, orda baş verənləri gözlərimizlə görə bilirdik gizləndiyimiz yerdən. Üstümdə dörd ədəd limonkam var idi. Qarğıları aralayıb limonkanın ikisini ora yerləşdirdim, ikisini isə özümüzə saxladım ki, son məqamda özümüzü öldürək. Gördüm ermənilər bu tutduqları camaatı uzadıblar yerə, onlara deyirlər ki, "sizə vaxtında dedik çıxın, niyə çıxmadınız? Elman Məmmədov hardadı? Niyə bayraq götürüb Əsgərana hücum edirdiniz?". Bax, belə-belə suallar verirdilər. Birdən soruşdular ki, burada filankəsin adamı varmı? Bir kişinin adını çəkdilər, onun oğlu da mənim tanışım idi. O oğlu da orda idi və o, qucağında uşağı, nənəsi, yoldaşı da çıxdılar irəli. Bu zaman oğlanı qucağında uşaqla güllələdilər. Bunu görən yoldaşı özünü atdı erməninin üstünə, üz-gözünü cırmaqladı.

*(ardı var)*

***Nəzirməmməd ZÖHRABLI***
***Jurnalist-publisist***

# Özəl məktəblərə xaricdən gətirilən dərsliklərin məzmunu ilə bağlı nazirlik maraqlı məsələ qaldırıb...

**Bu gün Azərbaycanda dövlət orta təhsil məktəbləri ilə yanaşı, özəl orta ümumtəhsil müəssisələri də, hətta xarici məktəblər də fəaliyyət göstərir. Dövlət orta ümumtəhsil məktəblərinin bütün dərslikləri, tədris vəsaitləri Təhsil Nazirliyinin nəzarəti altında ölkəmizdə çap edilərək məktəblərə paylanır.**



***Məzahir Məmmədli:** "Azərbaycanda da xaricdən gətirilən dərsliklərə nazirlik tərəfindən ciddi nəzarət edilməsi çox düzgündür"*

***Kamran Əsədov:** "Düşünürəm ki, bu addım müsbət nəticə verəcək"*

Özəl orta məktəblərdə tədris olunan vəsaitlər, dərsliklər isə əsasən xarici ölkələrdən gətirilir. Şübhəsiz ki, bu dərsliklərdə də Azərbaycanın dövlətçilik ideologiyasına zidd oan məqamların olması istisna deyil. İddia etmirik ki, var, sadəcə, bu barədə ehtimallar böyükdür. Əslində, çoxdandır özəl orta məktəblərdə, litseylərdə tədris edilən tədris vəsaitlərinin analiz edilməsi, yoxlanılması məsələsi gündəmdə idi. Bir sıra ekspertlər hesab edirdilər ki, xaricdən ölkəmizə gətirilən istənilən tədris vəsaiti ciddi şəkildə təftiş olunmalıdır ki, burada hansısa bir zərərli ideoloji təsir olmasın.

Artıq Təhsil Nazirliyi xaricdən gətirilən tədris vəsaitlərinə də ciddi nəzarət edəcək. Təhsil Nazirliyinin Tədris resursları şöbəsinin baş məsləhətçisi Vüsalə Əliyevanın bildirdiyinə görə,

Azərbaycanda mülkiyyət növündən asılı olmayaraq, ölkə ərazisində fəaliyyət göstərən bütün ümumtəhsil məktəblərində istifadə ediləcək dərsliklərin əvvəlcə Təhsil Nazirliyi tərəfindən təsdiq edilməsi tələbi qoyulub. Onun sözlərinə görə, əvvəllər Təhsil Nazirliyi tərəfindən yalnız dövlət ümumtəhsil məktəbləri üçün yeni yaradılan dərsliklərin məzmunu yoxlanılır və təsdiq edilirdi: "Özəl ümumtəhsil məktəblərində istifadə edilən və ya xaricdən gətirilən dərsliklərin məzmununun yoxlanılması və məktəblərdə istifadəsi ilə bağlı boşluqlar var idi.

Nazirlər Kabinetinin yeni təsdiqlədiyi "Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası" ilə bu boşluq aradan qaldırılıb".

Nazirlik rəsmisinin sözlərinə görə, qaydaların tətbiqindən sonra mülkiyyət növündən asılı olmayaraq, istənilən ümumtəhsil məktəblərində istifadə edilən dərsliklərin məzmununa dövlət nəzarətinin həyata keçirilməsi mümkün olacaq.

Təhsil eksperti Məzahir Məmmədli hesab edir ki, bu gün özəl orta məktəblərdə tədris edilmək üçün xarici ölkələrdən gətirilən bütün dərsliklərə, dərs vəsaitlərinə Təhsil Nazirliyinin ciddi nəzarət etməsi və bu sahədə olan boşluqların aradan qaldırılması vacibdir. O hesab edir ki, bəzi hallarda bu vəsaitlərdə şagirdlərimizin beynini zəhərləyən, onlara anti-Azərbaycan ruhu aşılayan məqamlar ola bilər. Bu baxımdan, ölkəmizə gətirilən bütün tədris vəsaitlərinin xüsusi laborator yoxlanışının həyata keçirilməsinin önəmli olduğunu deyən M.Məmmədlinin sözlərinə görə, bu bütün dünyada belədir. "Birincisi, xarici ölkələrdən gətirilərək özəl orta məktəblərdə tədris edilən dərs vəsaitlərinə ciddi nəzarət edilməsi məsələsi çox aktualdır. Yadınıza gəlirsə, bir neçə il əvvəldən başlayaraq Dövlət Gömrük Komitəsi tərəfindən zərərli dini ədəbiyyatın ölkəmizə gətirilməsinə qadağa qoyulub və respublikamıza daxil olan bütün dini ədəbiyyat nümunələri ciddi şəkildə yoxlanılır. Hətta Dini Komitə özü də təsdiq etmişdi ki, o kitabların müəyyən bir hissəsi müxtəlif dini təmayüllərə məxsusdur və olduqca zərərli təsirə malikdir. Bu vəziyyətdən çıxış edərək deməliyəm ki, orta ümumi təhsillə bağlı ölkəmizə gətirilən istənilən dərslik, xəritələr ciddi şəkildə yoxlanılmalıdır və bu dərsliklərə nəzarət çox vacibdir. Nazirliyin xarici ölkələrdən gətirilən dərsliklərə də ciddi nəzarət etməsi təqdirəlayiqdir.

Bilirsiniz ki, bu gün Azərbaycan Gürcüstanda yaşayan soydaşlarımıza dərs vəsaiti göndərir. Gürcüstan hökuməti bununla bağlı xüsusi komissiya yaradaraq o dərsliklərə ciddi nəzarət edir. O halda, bizim ölkəmizdə niyə belə bir nəzarət komissiyası olmasın? Məsələn, Rusiyada Azəbaycandilli Qarabağ məktəbi açılıb. Türkiyədə də belə məktəblər var. Azərbaycan dilində məktəblər bəzi Avropa ölkələrində də fəaliyyət göstərir. Bu məktəblərə dərsliklər Azərbaycan dövləti tərəfindən göndərilir. Yəni dərsliklər dövlətimizin vəsaiti hesabına çap edilsə də, həmin ölkələrə göndərdiyimiz dərsliklərə ciddi nəzarət mexanizmi mövcuddur. Bu gün Azərbaycanda da xaricdən gətirilən dərsliklərə nazirlik tərəfindən ciddi nəzarət edilməsi çox düzgündür və bu işə xüsusi komissiya baxmalıdır, həmin komissiya daxil olan bütün tədris vəsaitlərini araşdırmalıdır ki, orada hansısa bir zərərli məqam olmasın. Ehtimal olunur ki, bu dərsliklərdə dövlətçilik əleyhinə hansısa fikirlər gedə bilər. Yadınıza gəlirsə, bir vaxtlar bizim dərsliklərdə xəritələrlə bağlı ciddi problemlər vardı. Bu yaxınlarda da təsadüfi deyil ki, Prezidentin özü xəritəyə irad bildirdi. Halbuki, o xəritə Azərbaycanda çap olunmuşdu. Demək istəyirəm ki, bütün hallarda, dərs vəsaitlərinə ciddi nəzarət mexanizmi formalaşdırılmalıdır.

Ola bilsin ki, özəl məktəblər üçün nəzərdə tutulan həmin dərsliklərdə bizim ərazilərimizin adı, xəritələrimiz təhrif olunsun, Dağlıq Qarabağla bağlı yanlış məlumatlar olsun. Dəfələrlə olub ki, qondarma "Dağlıq Qarabağ Respublikası" "ayrıca dövlət" kimi təqdim edilib. Ola bilər ki, ölkəmizə xaricdən daxil olan nəşrlərin içində bu kimi yanlış məlumatlar olsun. Bunun qarşısı alınmalıdır" -deyə M.Məmmədli qeyd etdi.

Digər tanınmış təhsil eksperti Kamran Əsədov da hesab edir ki, bu məsələyə nəzarət çox vacibdir: "İlk növbədə qeyd edim ki, hazırda orta məktəb şagirdləri üçün nəzərdə tutulmuş dərs vəsaitləri və kitabları qavramaq, dərk etmək 6-17 yaşında olan insanın beyninə görə deyil. İstifadə olunan kitabların proqramlaşdırılmasından belə məntiq çıxır ki, ilin sonunda məzun olmuş hər şagirdin elmi dərəcəsi olmalıdır. Çünki onlar, demək olar ki, bakalavr, magistr pillələrində keçirilən eyni mövzuları mənimsəyiblər. Hesab edirəm ki, bu gün dərsliklər şagirdlər üçün yox, müəllimlər üçün yazılır. Çünki bu kitabları müəllimlər özü güclə qavrayıb başa düşür, o ki qaldı şagirdlər. Düşünürəm ki, dərslik siyasətinə uyğun olaraq, məktəbin 3 istiqaməti ola bilər - pedaqoji, siyasi və müasir. Əgər məktəbin qarşısına qoyulan vəzifə bir qədər savadlı, kifayət qədər sözəbaxan, sosial baxımdan qeyri-aktiv şagird hazırlamaqdırsa, onda dərsliklər Sovet dövründəki kimi olmalıdır. Orada yalnız vahid düzgün ideya, fikir olmalı, artıq-əskik mətnlərə yer verilməməli, hər şey ölçülü-biçili və "bir udumluq" olmalıdır. Birmənalı suallara birmənalı cavablar və s. Ancaq əgər biz müasir məktəbdən danışırıqsa, o zaman dərslik bu gün tamam başqa funksiyaları daşımalıdır. Ən müxtəlif informasiya texnologiyaları ortaya çıxıb. İnformasiya texnologiyalarına istinad etmədən hazırlanan dərsliklər səssiz filmlər kimidir. Görüntü var, amma bir dənə səs, söz yoxdur. Tədris yönümündən baxanda isə burada peşəkar ekspertlərə ehtiyac var.

Təəssüflər olsun ki, bu gün dərsliyi yazanlar, tədris proqramlarını hazırlayanlar düşünmürlər ki, bu dərsliyi oxuyan uşaq necə olmalıdır. Onlar bunu düşünür: kitabda nə artıqdır, nə yox. Dərsliyə səhifələrin sayına görə yanaşırlar. Səhifələr bitdi, işimiz də bitdi. Amma sonra hamı narazıdır. Hamı bilir ki, dərslik necə olmalıdır, amma heç kəs dərsliyi lazım olduğu səviyyədə hazırlamır.

Etiraf etmək lazımdır ki, bu gün orta məktəblərin bütün siniflərində istifadə olunan dərslik deyil, əzab mənbəyidir. Dərslik şagird üçün hazırlanmış olsaydı, onun siması 180 dərəcə dəyişərdi. Avropa dərsliklərinə fikir verin. Qalın, maraqlı, cürbəcür. Əlavə mətnlər, şəkillər, yaradıcı tapşırıqlar. Müəllim bunların 100-də 10-nu istifadə edə bilər. Bu dərsliklərdə qələmlə yazmaq da mümkündür. Bilirsiniz, dərslik fikir laboratoriyasıdır. Tapşırıqlarda əlavə göstərişlər olmalıdır. Şagirdə seçim imkanı verilməlidir. O zaman şagird riyaziyyatı yox, riyaziyyatın köməyi ilə həyatı öyrənəcək. Müəllim şagirdə inkişaf etmək, dəyişmək dərsi öyrətməlidir. Məqsədi və mahiyyətindən asılı olmayaraq, dərsliklərdə jargon ifadələr, küçə sözləri işlədilə bilməz".

Bunun şagirdlərə çox pis nümunə ola biləcəyini deyən K.Əsədovun sözlərinə görə, təhsil sistemində istifadə olunan dərslik və dərs vəsaitləri mütləq şəkildə vahid mərkəzdən yoxlanılıb çapa təqdim olunmalıdır. "Əlbəttə, istənilən şəxs, müəssisə tərəfindən vəsait çap oluna bilər, amma çap olunmamışdan əvvəl həmin qurumun rəyi alınmalıdır. Bir növ, təhsil sisteminə daxil olan dərslik və dərs vəsaitləri senzuradan keçməlidir. Çünki bir çox halda təhsil sisteminə, milli dəyərlərə aid olmayan vəsaitlər məktəblərə yol açır. Ona görə də düşünürəm ki, bu addım müsbət nəticə verəcək. Biz bir çox halda şagirdlərin sağlamlığına, yaş xüsusiyyəti və psixologiyasına aid olmayan vəsaitlərin satıldığını və istifadə olunduğunu görürük. Bu heç də səmərə vermir. Lakin bundan sonra qeyd olunan halların qarşısını almaq mümkün olacaq" - deyə müsahibimiz bildirdi.

***İradə SARIYEVA***

№ 50 (4181) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

20 MART 2020-ci il

www.baki-xeber.com



# Koronavirusdan etibarlı şəkildə necə qorunmaq olar?

**Dövlətlər tərəfindən görülən bütün qoruyucu tədbirlərə baxmayaraq, vəziyyət pisləşməkdə davam edir, koronavirus infeksiyası hər gün sürətlə artır.**

Vəziyyəti pandemiya olaraq qəbul edən ÜST, virusun yayılmasının qarşısının alınması üçün ən əlverişli üsulun əlləri təmiz və hərtərəfli yumağın olduğunu bildirib. Bir çoxları, virusun paltar və ya ayaqqabı üzərində də qala biləcəyini və adamla birlikdə evdə "yaşaya biləcəyini"ni iddia edir. ABŞ həkimləri koronavirusun müxtəlif səthlərdə bir neçə saata qədər yaşaya biləcəyini təsdiqləyirlər. Evinizə ölümcül bir virusun daxil olmasının qarşısını necə ala bilərsiniz? "Medicina.az" bildirir ki, epidemioloqların fikrincə, heç də bütün binanın dezinfeksiyası və ya paltarların kimyəvi təmizlənməsi kimi fövqəladə tədbir lazım deyil. Virusla mübarizə üçün bəzi vacib nüanslara diqqət etmək şərti ilə gündəlik ev təmizliyi kifayətdir. Əsas üsullar standart bildiyimiz: evi tez-tez havalandırmaq (gündə 2-4 dəfə yarım saat) və evi rütubətli saxlamaq. Ev işlərinin ən çox təmasda olduğu obyektlərə xüsusi diqqət yetirilməlidir: kranlar, pəncərələr və pəncərələrdəki tutacaqlar, stullar, masa, məişət texnikası, televizor pultu, kompüter siçanı və klaviatura. Onları təmizləmək su və ya spirtlə nəmləndirilmiş adi bir bezdən istifadə edə bilərsiniz. Qonaqlarınız gəlibsə, onlar getdikdən dərhal sonra təmizliyə başlaya bilərsiniz. Evə qayıtdıqdan sonra əl vurduğunuz bütün şeyləri - qələm, mənzil açarları, mobil telefon, qulaqlıqları silməlisiniz. Mütəxəssislərin fikrincə, bu sadə tədbirlər təhlükəli virusun evinizə girmə şansını əhəmiyyətli dərəcədə azaltmağa kömək edəcəkdir. Xatırladaq ki, bu yaxınlarda Sinqapur həkimləri koronavirusun yeni simptomlarını aşkar ediblər. Dünyada infeksiyaya yoluxanların sayı 123 min nəfəri ötüb, bunlardan təxminən beş min nəfəri ölüb. İnfeksiya halları 114 ölkədə aşkarlanıb.



## Nəfəs almayan canlı...

**Alimlər canlılar dünyası üçün əhəmiyyətli bir kəşfə imza atdı. İlk dəfə tənəffüsə ehtiyac duymadan yaşaya bilən bir canlı kəşf edildi.**

Bu ana qədər məlum olan bütün canlılar hər hansı bir formada nəfəs alaraq enerji təmin edirdilər. Təl-Əviv Universitetinin araşdırmaçıları əhəmiyyətli bir kəşfi tanıtdılar. Alimlər "Henneguya salminicola" adı verilən parazitin, nəfəs almadığını göstərdilər. Proceedings of the "National Academy of Sciences" dərgisində nəşr olunan məqaləyə görə "Henneguya salminicola" adı verilən birhüceyrəli canlıda, tənəffüsə görə cavabdeh olan mitoxondri və ya bənzəri bir orqanel tapılmır. "Henneguya salminicola" adlı hüceyrənin kəşfi, dünya üzərində bir ilki ortaya çıxardı və ilk dəfə tənəffüs etməyən bir canlı kəşf edilmiş oldu. Təl-Əviv Universitetində təkamül sahəsi üzrə bioloq olaraq çalışan və məqalənin də müəlliflərindən olan Doroti Haxon bu barədə belə deyib: "Toxumalarını, sinir hüceyrələrini, əzələlərini və hər şeyini itirdi. İndi isə tənəffüs etmə qabiliyyətlərini itirdiklərini görürük". Doroti Haxon genetik kiçilmənin ehtimalla "Henneguya salminicola" kimi parazitlər üçün mümkün olduğunda sürətli və sıx törəmək üçün böyük bir üstünlük təmin etdiyini söylədi. "Henneguya salminicola" hüceyrəsinin təkamülləşdiyi miksozoanlar heyvanlar aləmindəki ən kiçik genom quruluşuna sahib canlılardır. Bu kiçik genom quruluşu, həmin canlıları olduqca dayanıqlı hala gətirir.

## Alimlər canlının yaddaşını silə biliblər...

**Tokio Universitetinin alimləri yaddaşı silməyin yolunu tapıblar. "Milli.Az" xəbər verir ki, araşdırmaçılar təcrübəni meyvə milçəyi (Drosophila) üzərində aparıb və nəticə əldə etmək üçün onu uzun müddət qaranlıqda saxlayıblar.**

Belə ki, uzun müddət cütləşməyən erkək meyvə milçəyi travma alır və bu da onun yaddaşında xatirə kimi qalır. Nəticədə zamanla dişiləri izləməkdən vaz keçir. Ancaq alimlər erkək milçəyi ən az iki gün tam qaranlıqda saxlayıblar. Bu zaman onun xatirələri silinib və özünü keçmişdəki kimi aparıb. Beləliklə, işığın yaddaşın saxlanılmasında çox vacib rol oynadığı ilk dəfə təsdiqlənib. Bioloqlar bu effektə cavabdeh olan molekulyar prosesi aydınlaşdıra biliblər. Proses yaddaş və öyrənməyə cavabdeh olan zülalla bağlıdır. Araşdırmaçıların fikrincə, onların kəşfi gələcəkdə insanların travmatik xatirələrdən qurtulmasına yol açan müalicənin metodik əsası ola bilər. Bunu yalnızca dərman deyil, həm də kənar faktorların vasitəsilə etmək mümkün olacaq.







**Qoç** - Gün ərzində yaşanacaq uğurlar və uğursuzluqlar əsas yolun göstəricisidir. Məqsədə doğru necə hərəkət etdiyinizi dəqiqləşdirə bilərsiniz. Seçim etməklə bağlı situasiya yaranarsa, itkilərlə qarşılaşa bilərsiniz.



**Buğa** - Şəraiti çözməyə çalışın. Evdə olan lazımsız əşyalardan qurtulun, dolab və rəfləri təmizləyin. Fayl və qovluqlarda qayda yaradın, gərəksiz məktubların hamısını pozun, informasiyaları yerbəyer edin.



**Əkizlər** - Hadisələrin axarı sürətlənib və bu səbəbdən emosional yorğunluq hiss edə bilərsiniz. Özünüzünkü hesab etdiyiniz nəsnə həyatınızdan yox ola bilər. Bu isə narazılıq, üsyan və alternativ axtarışına səbəb olacaq.



**Xərçəng** - Yaranmış şərait sizi yeni orientirləri seçməyə vadar edə bilər. Xoş olmayan xəbərlərin alınması istisna deyil. Əslində, həmin xəbərlər qüvvələr nisbətini və dəstək qrupunu müəyyənləşdirməyə kömək edəcək.



**Şir** - Ünsiyyət və əyləncələrdə ehtiyatlı olun. Təhlükəli macəralar, risk və avantüraları sonrakı dəfəyə saxlayın. Feyerverk və elektrikdən uzaq durun. İctimai yerlərdə, insanların gur olduqları yerlərə baş çəkəndə sayıq olun.



**Qız** - Yeni iş və yeni məşğuliyyət yarana bilər. Sizə də məhz bu gərəkdir. Səyləri həmin istiqamətə yönəldin. Orqanizmi tonusda saxlayın. Gün ərzində işləri başa vurandan sonra evdə rahatlıq və qayda yaradın.



**Tərəzi** - Yaxın ətrafınızdakı insanları sizi maraqlandıran işə cəlb etmək ideyasından əl çəkin. Kollektivdə mübahisələr, fikir ayrılıqları, səbəbsiz münaqşələr olar. Şəxsi işlərinizdə şübhəli və tələskən olmayın.



**Əqrəb** - Həddən artıq çalışıb özünüzü yormayın. Əks təqdirdə, orqanizm buna çox pis cavab verəcək. Axşam saatlarını istirahət edərək keçirin. Evə qonaq çağırmaq, ya da dostlara və ya qohumlara baş çəkmək mümkündür.



**Oxatan** - Yeni ideyaların yaranması, yeni təkliflərin alınması istisna deyil. Gərəkli informasiya axtarışı ilə məşğul olun, faydalı ola biləcək insanlarla əlaqələri bərpa edin. Xarici görünüşüzün qayğısına qalın.



**Oğlaq** - Həyata və işə yaradıcı yanaşın. Enerjinizin artdığını hiss etsəniz, gündəlik işlərin əsasını günün ilk yarısında görün. Yaxın ətrafınızdakı insanlarla birgə fəaliyyət hadisələrin axarını müəyyənləşdirəcək.



**Dolça** - Emosional olun, soyuqqanlı və laqeyid davranmayın. Axşam saatlarında romantik hisslər yarana bilər. Ailə üzvləri və yaxınlarınızla ünsiyyətdə olun, onları dinləyin.



**Balıqlar** - Əla gündür. Enerjinizin artdığını, təşəbbüs və fəallığa ehtiyac duyduğunuzu hiss edəcəksiniz. Kollektivdə ümumi məqsəd və tapşırıqları müəyyənləşdirin, kimin nə iş görəcəyini planlaşdırın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Türkiyədə yaşlıların sayı artıb



**Türkiyə əhalisi arasında 65 yaşdan yuxarı olanların sayı son beş ildə 21,9 faiz artıb.**

"AZƏRTAC" bildirir ki, statistik göstəricilərə əsasən, 2019-cu ildə ölkədə yaşlı təbəqənin sayı 7 milyon 550 min 727 nəfər olaraq hesablanıb. Bu rəqəm ümumi əhalinin 9,1 faizini təşkil edib. Bu insanların 44,2 faizi kişilər, 55,8 faizi isə qadınlardır ki, onların da 9,1 faizinin yaşı 85-dən yuxarıdır. 2014-cü ildə yaşlı təbəqənin sayı 6 milyon 192 min 962 nəfər olub. Mütəxəssislər bunu Türkiyədə doğum və ölüm saylarının azalması ilə izah edirlər. Belə ki, ölkədə uşaq və gənclərin sayında da azalma müşahidə edilir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.